Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

ASCO

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

30 avqust 2019-cu il № 61-64 (9343) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

644,6 bal toplayan gənc ADDA-nın "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasını seçib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasına (ADDA) qəbul olan tələbələrin qeydiyyatı 27 avqustda başa çatıb. Siyahısı əvvəlcədən elan edilmiş sənədləri Akademiyaya təqdim edən tələbələr qeydiyyatdan keçirilib və onlar haqqında məlumat Dövlət İmtahan Mərkəzinin sisteminə yerləşdirilib.

Səh. 2

ASCO-ya məxsus gəmi Qara dənizdə müntəzəm fider konteyner xətti üzrə daşımalar həyata keçirəcək

Gürcüstanın paytaxtı Tbilisidə "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin işçi qrupunun iclası keçirilib.

Səh. 3

Qafqazın logistika və tranzit məkanı

Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə açıq dənizə çıxışı olmayan Azərbaycan ölkələri birləşdirir

Əlverişli coğrafi mövqeyindən yararlanaraq Avrasiya məkanının mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan həm də Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi qəbul edilir.

Səh. 4

Xəzərdə "Xocalı" gəmisi də üzəcək

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) alyans partnyoru olan "Caspian Marine Services"-in (CMS) donanmasına yeni "Xocalı" təchizat gəmisi daxil edilib.

Səh. 5

"Mikayıl Müşfiq" gəmisinin heyəti "Müşfiqli günlərim" xatirə kitabını qiymətli hədiyyə kimi qəbul edib

Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər xanımın yadigarı Leyla Axundzadə ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus "Mikayıl Müşfiq" universal quru yük gəmisində qonaq olub.

Səh. 6

Dənizçilər arasında üzgüçülük yarışı keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) işçiləri arasında üzgüçülük yarışı keçirilib.

Səh. 8

Mehriban Əliyeva: "Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!"

Birinci xanım ailə, dəyərlər və xoşbəxtlik haqqında

Avqustun 26-sı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Birinci xanım Mehriban Əliyevanın ad günü idi. Trend İnformasiya Agentliyi Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edərək, ondan özü, fəaliyyəti, ailəsi, onun həyati dəyərləri barədə danışmasını xahiş edib.

Mehriban Əliyevanın göndərdiyi məktubu oxuculara təqdim edirik.

- Əvvəlcə, bu günlərdə mənə ünvanlanmış təbriklərə görə hamıya ürəkdən dərin minnətdarlığımı bildirirəm. Sizin səmimiyyət və mehribanlığınız, dəstək və sevginiz məni dərindən təsirləndirib. Sadə əməyimi qiymətləndirən, ideallarıma inanıb onu bölüşən hər kəsə minnətdaram. İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir.

Mən ənənəvi dəyərlərin əsas götürüldüyü Azərbaycanın ziyalı ailəsində dünyaya göz açıb, boya-başa çatmışam. Bizi, gənc nəsli böyüklərin nüfuzunun və davranışının ən yaxşı nümunə olduğu, ailənin hər bir kiçik üzvünə üzərinə düşən məsuliyyəti daşımağın öyrədildiyi böyük və möhkəm ailədəki ab-hava formalaşdırıb.

Yaşa dolduqca böyükləri, valideynləri anlamağa başladım, onlara sonsuz minnətdarlıq hissi duydum. Çünki onlar həqiqətə və mənəviyyata can atmağı öyrətdilər. Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət – həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur.

Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Anamı itirdiyim vaxtdan artıq 27 il ötür. Onun yoxluğunu hər zaman hiss edirəm.

Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb. Atamın insani keyfiyyətləri – onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur.

Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir.

Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir.

Həyat yoldaşım Prezident İlham Əliyev 16 ildən çoxdur ki, xalqımıza xidmət edir. Azərbaycanın qüdrətli, uğurla inkişaf edən, bütün dünyada nüfuz qazanan və bizim – müstəqil Azərbaycan vətəndaşlarının haqlı olaraq qürur duyduğu bir ölkə olması istiqamətində onun bütün nailiyyətləri öz xalqına təmənnasız sevgi və sədaqətinə əsaslanır. Onun başlıca missiyası – hər zaman və hər yerdə Vətənimizin maraqlarını qorumaqdır.

O, bu son dərəcə çətin yolda nədən güc alır? İlk növbədə, öz xalqının dəstəyindən, inamından və sevgisindən.

İnanıram ki, xoşbəxt şəxsi ailə həyatı, sevgi və qarşılıqlı hörmət ab-havası da burada əvəzolunmaz rol oynayır.

(Davamı 2-ci səhifədə)

Mehriban Əliyeva: "Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!"

Birinci xanım ailə, dəyərlər və xoşbəxtlik haqqında

(Əvvəli 1-ci səhifədə)

Mən öz övladlarımla fəxr edirəm. İlk növbədə, ona görə ki, onlar nəcib və ləyaqətli insan kimi böyüyüblər. Onların hərəkətlərinə görə heç vaxt utanc və məyusluq hissi keçirməmişəm. Çünki Leyla, Arzu və Heydər öz işinə, təhsilinə ciddi və məsuliyyətlə yanaşır, ailə ənənələrini yüksək tutur, hörmət bəslə-yir, onların dəqiq mənəvi amalları var. Xoşbəxtəm ki, övladlarım xeyirxah və başqalarının dərd-sərinə biganə qalmayan insanlardır. Mən onlara inanıram, çünki dürüstlük və ləyaqətlə yanaşı, bu həyatda ən yaxşı bələdçi – insanlıq və şəfqətdir.

Mən nadir hallarda müsahibə verirəm və özüm haqqında danışmağı xoşlamıram. Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu, mənim üçün ən yüksək mükafatdır.

Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir.

Şübhəsiz ki, hər bir uğur və nailiyyət komanda işindən asılıdır. Fəxr edirəm ki, bütün bu illər ərzində mənimlə çiyin-çiyinə parlaq, istedadlı, məqsədyönlü, zəhmətsevər, həssas insanlar mənim məsləkdaşlarım, həmfikirlərim olublar. Onların hamısına – uzun illər ərzində işlədiyim hər kəsə, bizim layihələrə və təşəbbüslərə heç olmasa bircə dəfə qoşulanlara dərin təşəkkürümü və ehtiramımı bildirirəm.

Ən yaxşı xüsusiyyətlərini əsrlər boyu qoruyub saxlamaq istedadına, qəhrəmanlığına, doğma torpağa sədaqətinə, xeyirxahlığına və qəlbinin genişliyinə görə Azərbaycan xalqına, ölkəmizin hər bir vətəndaşına səmimi qəlbdən minnətdarlığımı bildirirəm!

Qoy, Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!

Sevgi və səmimiyyətlə, sizin Mehriban Əliyeva.

644,6 bal toplayan gənc ADDA-nın "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasını seçib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasına (ADDA) qəbul olan tələbələrin qeydiyyatı 27 avqustda başa çatıb. Siyahısı əvvəlcədən elan edilmiş sənədləri Akademiyaya təqdim edən tələbələr qeydiyyatdan keçirilib və onlar haqqında məlumat Dövlət İmtahan Mərkəzinin sisteminə yerləşdirilib.

ADDA-ya 4 ixtisas üzrə qəbul aparılıb. Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqə nəticəsində "Gəmiqayırma və gəmi təmiri", "Dəniz naviqasiyası mühəndisliyi" (Azərbaycan və ingilis dillərində tədris), "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" (Azərbaycan dilində tədris) ixtisasları üzrə yerlər tam dolub. Ümumilikdə 234 tələbəni bu il birinci kursa qəbul edən Azərbaycan Dövlət Dəniz Akademiyası planı 78 faiz ödəyib.

Statistikaya əsasən, qəbul olunanların 184 nəfəri, yəni təxminən 78 faizi imtahanların hər iki mərhələsindən ümumilikdə 300-644 bal toplamış abituriyentlər olub. Maksimal 644,6 bal qazanmış tələbə ADDA-nın "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasını (ingilis dilində tədris) seçib.

Akademiyaya bu il dövlət sifarişi əsasında 181, ödənişli əsaslarla isə 53 nəfər daxil olub. Ödənişli əsaslarla qəbul olan tələbələrdən 11 nəfəri xüsusi imtiyaza malik olduğu üçün təhsil haqqını ödəməkdən azad edilib.

Qeydiyyat zamanı Bakıda daimi yaşayış yeri olmayan və ADDA-nın yataqxanasında qalmaq istəyən tələbələrdən ərizələr qəbul edilib. Hər bir tələbə üçün ölçülərinə uyğun xüsusi geyim forması sifariş olunub.

Qeyd edək ki, 2019/2020-ci tədris ilində dərslər 16 sentyabrda başlanacaq.

ADDA-ya qəbul olan bütün tələbələrimizi təbrik edir, onlara tədrisdə uğurlar arzulayırıq!

Mühacirləri daşıyan gəmi qəzaya uğrayıb

Liviya sahillərində mühacirləri daşıyan gəmi qəzaya uğrayıb.

Reuters informasiya agentliyi xəbər verir ki, bu barədə BMT Ali komissarının Qaçqınların İşi üzrə İdarəsi məlumat yayıb.

Məlumata görə, qəza nəticəsində çox sayda insan həyatını itirib, 60-a yaxın insan isə xilas edilib. BMT Ali komissarının Qaçqınların İşi üzrə İdarəsinin rəsmi nümayəndəsi Çarli Yaksli özünün "Twitter" səhifəsində faciə nəticəsində 40 nəfərin həlak olduğunu və ya itkin düşdüyünü bildirib.

Miqrasiya üzrə Beynəlxalq Təşkilatın məlumatına əsasən, indiyədək dənizdən bir neçə cəsəd çıxarılıb.

Liviya sahillərində baş verən faciəvi hadisənin dəqiq səbəbləri hələlik məlum deyil. Hazırda gəmi qəzasının baş verdiyi rayonda xilasedicilər fəaliyyət göstərir.

Güclü dalğalar balıqçı gəmisini çevirib

Sakit okeanda, Hokkaydo adasının yaxınlığında qəzaya uğramış balıqçı gəmisində olan yeddi nəfərin hamısı xilas edilib.

Bu barədə avqustun 28-də Kyodo agentliyi məlumat yayıb.

Bildirilir ki, hadisəni Sahil Mühafizəsinin təyyarəsi aşkar etdikdən sonra yaxınlıqdakı balıqçı gəmisi onların köməyinə gəlib. Gəminin dənizdəki güclü dalğalar nəticəsində əyildiyi və sonradan çevrildiyi güman edilir.

Hadisə Sakit okeanda, Kuşiro limanından 90 kilometr məsafədə baş verib. Gəminin Miyaqi prefekturasında qeydiyyatdan keçmiş şirkətə məxsus olduğu bildirilir.

"İqlim sahəsində fövqəladə vəziyyət" elan edilib

2019-cu ilin iyulu bütün meteomüşahidələrin tarixində ən isti ay olub. 2015-2019-cu illər isə çox güman, ən isti illər olacaq.

Bunu Fransanın Biarrits şəhərində "Böyük yeddiliy"in sammitində çıxışında BMT-nin Baş katibi Antonio Quterreş bildirib.

BMT-nin başçısı vurğulayıb ki, dünya liderlərinin görüşünə iqlim məsələlərinə dair sammit üçün siyasi iradəni səfərbərliyə almağa gəlib. Sammit sentyabr ayında BMT Baş Assambleyası çərçivəsində təşkil ediləcək.

Baş katib deyib: "Dünya Meteorologiya Təşkilatının məlumatına görə, atmosferdə karbon qazının konsentrasiya səviyyəsi bəşəriyyətin bütün tarixi ərzində ən yüksək həddə çatıb: karbon qazının belə səviyyəsi 3-5 milyon il əvvəl də mövcud olub, onda temperatur da xeyli yüksək, dənizlərin səviyyəsi isə 10-20 metr yüksək olub".

O xatırladıb ki, Qrenlandiyada buzlaqlar sürətlə əriyir. Təkcə iyul ayında orada 179 milyard ton buzlaq əriyib. Eyni zamanda Sibir, Alyaska, Kanada, Qrenlandiya və Amazonda bu ilin iyun-iyul aylarında yanğınlar onlarca meqaton karbon qazının atmosferə tullanmasına gətirib çıxarıb.

BMT-nin başçısı deyib: "Baş verənlər iqlimlə bağlı fövqəladə vəziyyətdir. Bu gün həmin vəziyyət Paris İqlim Sazişinin qəbul edildiyi 2015-ci ildən də xeyli pisdir. Bunu elmi məlumatlar təsdiq edir. İqlim dəyişmələri üzrə hökumətlərarası qrupun ekspertləri qeyd edirlər ki, biz yüzilliyin sonuna qədər temperaturun yüksəlməsini Selsi üzrə 1,5 dərəcə civarında saxlamalı, karbon qazı tullantılarını 2050-ci ilə qədər sıfıra endirməli, parnik qazları tullantılarını 2030-cu ilə qədər 45 faiz azaltmalıyıq".

Baş katib vurğulayıb ki, ölkələr Paris Sazişini yerinə yetirmək üçün böyük səylər göstərməlidirlər. Parisdə iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində verilən vədlərin çoxu yerinə yetirilmir. Üstəlik, Sazişin nəzərdə tutduğu tədbirlər də artıq yetərli deyil. "Böyük yeddiliy"in sammiti beynəlxalq birliyə müraciət etmək üçün gözəl fürsətdir. "Yeddilik" ölkələri başqa ölkələrə nümunə olmalıdırlar", - deyə Antonio Quterreş fikrini tamamlayıb.

Xilasetmə xidməti və dalğıclar itkin düşənlərin axtarışını davam etdirirlər

Filippində bərənin yanması nəticəsində ən azı 4 sərnişin ölüb, daha 39 nəfər itkin düşüb.

Reuters agentliyi xəbər verir ki, yanğın avqustun 27-də axşam saatlarında baş verib. Ölkənin cənubunda insanları bir sahildən o birinə daşıyan bərə suyun ortasında alışıb. Onun göyərtəsində olan 187 nəfərdən, o cümlədən heyət üzvündən ən azı dördü ölüb. İnsanlar alovlara qərq olmuş bərədən özlərini suya atıblar. Onların bir neçəsini xilas etmək mümkün olsa da, 39 sərnişin hələ də tapılmayıb. Filippinin axtarış-xilasetmə xidməti və dalğıclar həmin şəxslərin axtarışını davam etdirirlər. Həlak olanlardan biri 2 yaşında uşaqdır. Bundan başqa, itkin düşənlərdən də yeddisi bərənin heyət üzvlərdir.

Bildirilir ki, bərə cənubi Cebu əyalətindəki Samboan qəsəbəsindən Dapitan şəhərinin Pulauan limanına üzürmüş.

Limanda antiterror təlimləri keçiriləcək

Aktau limanında antiterror təlimləri keçiriləcək.

Təlimlər Mangistau Dəniz Əməliyyat Qərargahı tərəfindən "Aktau Beynəlxalq Dəniz Ticarət Limanı "ASC-nin ərazisində baş tutacaq.

Təlimin məqsədi dəniz iqtisadi fəaliyyət obyektlərində törədilən terror aktlarının qarşısını almaqda iştirak edən dövlət orqanlarının qüvvə və vasitələrinin hazırlıq səviyyəsini artırmaqdır.

Terrorla mübarizə təlimi zamanı nəqliyyat vasitələrinin və piyadaların hərəkəti ilə əlaqədar məhdudlaşdırma tədbirləri də nəzərdə tutulub.

İlahə Əhmədova

ASCO-ya məxsus gəmi Qara dənizdə müntəzəm fider konteyner xətti üzrə daşımalar həyata keçirəcək

Gürcüstanın paytaxtı Tbilisidə "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin işçi qrupunun iclası keçirilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sədri Rauf Vəliyevlə yanaşı, Gürcüstan, Qazaxıstan və Rumıniyadan olan dəmiryolu və dəniz nəqliyyatı şirkətlərinin nümayəndələrinin də qatıldığı yığıncaqda Qara dənizdə Gürcüstanın Batumi və Rumıniyanın Konstansa limanları arasında ASCO gəmisi vasitəsilə konteyner daşımalar xəttinin yaradılması məsələsi müzakirə olunub və bununla bağlı qərar qəbul edilib.

Bu xətt üzrə əsas yük kimi Avropa-Çin-Avropa və Avropa-Mərkəzi Asiya-Avropa istiqamətlərindən tranzit yüklərin daşınması nəzərdə tutulub. Gözləntilərə görə, adıçəkilən istiqamətlər üzrə Qara dənizdə konteyner xətti ilə yüklərin çatdırılması müddəti azalacaq.

Bu da Qara dəniz üzərindən də keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Middle Corridor) cəlbediciliyini və Azərbaycan üzərindən keçən tranzit konteyner daşımalarının həcmini artıracaq.

Qeyd edək ki, ASCO-nun Qara dənizdə fider gəmisinin ilk sınaq səfərinin 2019-cu il sentyabrın 20-dək həyata keçirilməsi nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, fider gəmi hər 10 gündən bir (ayda 3 dəfə) səfərə çıxacaq. Yük həcmi çoxalacağı halda xətt üzrə gəmilərin sayının və reyslərin müntəzəmliyinin artırılması da nəzərdə tutulub.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə 25 milyon tondan çox yük daşınıb

2019-cu ilin yanvar-iyun aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 25 milyon 141,6 min ton, yük dövriyyəsi isə 5 milyard 301 milyon ton-kilometr olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 16 milyon 330,4 min tonu və ya 65 faizi avtomobil nəqliyyatı, 6 milyon 265,2 min tonu və ya 24,9 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 546 min tonu və ya 10,1 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 16,1 faizini və ya 4 milyon 56,5 min tonunu tranzit yüklər təşkil edib.

"Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 63 faiz artıb

Yanvar-iyun aylarında "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 63 faiz artıb.

Bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev deyib.

O bildirib ki, 2019-cu ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, yanvar-iyun aylarında "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

ASCO-nun sifarişi ilə nəşr edilən kitablar Milli Kitabxanaya təqdim olunub

ASCO-nun sifarişi ilə nəşr olunan "Azərbaycanda Gəmiçilik: Sənədli tarix", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi-160 il", "Ulu öndər Heydər Əliyev və Milli Gəmiçilik Siyasəti" kitabları Azərbaycan Milli Kitabxanasına təqdim olunub.

Sentyabrdan hər üç nəşr kitabxanaya daxil olan kitablar üçün sərgi güşəsində "Yeni ədəbiyyatın sərgisi" başlığı adı altında bir həftə ərzində sərgilənəcək. Daha sonra isə kitabxananın əsas fonduna daxil ediləcək. Sərgidə olan kitablar elektron kataloqda da görünəcək.

"Azərbaycanda Gəmiçilik: Sənədli tarix", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi-160 il" kitabları Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi, "Ulu öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti" kitabı isə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə yazılıb.

Əməkdar mədəniyyət işçisi Müsəlim Həsənovun müəllifi olduğu "Azərbaycanda gəmiçilik: sənədli tarix" kitabında ölkəmizin zəngin dənizçilik ənənələrinə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixinə nəzər salınıb. Burada fotoların hər biri özündə böyük bir tarixi əhəmiyyətli yük daşıyır.

ASCO-nin İctimaiyyətlə əlaqələr departamentinin əməkdaşı Sevda Abdullayevanın müəllifi olduğu "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi – 160 il" markalı kitabında isə nadir foto və maraqlı məlumatlarla bərabər, markalar da yer alıb. Bununla belə, kitab Azərbaycanda gəmiçiliyin inkişafı, bir sahə kimi formalaşması və keçdiyi müxtəlif mərhələlər, habelə Gəmiçiliyin taleyində əhəmiyyətli rolu olan şəxsiyyətlər haqqında məlumatlarla zəngindir.

"Ulu öndər Heydər Əliyev və Milli Gəmiçilik Siyasəti" kitabında Ümummilli Liderin 1969-cu ilin yayında respublikaya rəhbərlik etdiyi ilk günlərdən ömrünün sonuna qədər gəmiçilik sahəsinə göstərdiyi qayğı və diqqətdən söhbət açılır.

Bundan başqa, kitabda Heydər Əliyevin hakimiyyəti illərində neft sənayesinin dirçəldilməsi, gəmiçilikdə yerli və milli kadrların irəli çəkilməsi və sair kimi sahələrdə görülən işlərdən konkret faktlar və arxiv sənədləri əsasında söhbət açılır.

Kitab Azərbaycan və Rusiyanın arxivlərində saxlanılan çoxsaylı sənədlər, gəmiçilik tarixinə dair kitablar, eləcə də o dövrdə yaşamış adamların xatirələri əsasında qələmə alınıb.

İran donanmasını qorumaq üçün Ədən körfəzinə iki hərbi gəmi göndərib

İran Ədən körfəzinə iki hərbi gəmi göndərib.

AZƏRTAC xarici KİV-ə istinadla xəbər verir ki, bunlar İran Hərbi Dəniz Qüvvələrinə vertolyotlar apara bilən "Hark" və dağıdıcı "Səhənd" gəmiləridir. Hərbi Dəniz Qüvvələrinin komandanı Həbibullah Səyyari gəmilərin Ərəbistan dənizində və Ədən körfəzində İran donanmasını qorumaq üçün göndərildiyini bildirib.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının başçılıq etdiyi koalisiyanın Yəməndə hərbi əməliyyatlara başlamasından sonra Ədən körfəzi strateji baxımdan daha böyük əhəmiyyətə malikdir.

Keniya nefti ilə dolu ilk tanker yola salınıb

Keniya ölkə tarixində ilk dəfə dünya bazarına xam neft çıxararaq neft ixracatçıları qrupuna daxil olub.

France-Presse informasiya agentliyi xəbər verir ki, Keniya Prezidenti Uhuru Kenyatta neftlə dolu ilk tankerin yola salınması ilə əlaqədar Mombas limanında keçirilən təntənəli mərasimdə çıxış edərək bu hadisəni ölkə tarixində dönüş nöqtəsi adlandırıb. Dövlət başçısı, həmçinin 200 min barrel neft daşıyan tankerdə milli bayraq qaldırıb.

Keniya neftinin ilk partiyası beynəlxalq hərracda Çin kompaniyası tərəfindən 12 milyon dollara alınıb və emal olunması üçün Malayziyaya yola salınıb.

Qeyd edək ki, Keniyada ilk neft yatağı 2012-ci ildə Lokiçar vadisində aşkarlanıb. Yatağın ehtiyatları 560 milyon barrel həcmində qiymətləndirilir. Hazırda ölkədə sutka ərzində 80 min barrel xam neft hasil olunur. Bununla yanaşı, yeni geoloji tədqiqatlara əsasən, Lokiçar Keniyanı şimaldan cənuba kəsən Böyük rif vadisi üzrə yerləşən nəhəng neft vilayətinin bir hissəsi ola bilər.

Nəqliyyat dəhlizləri Azərbaycanın iqtisadi imkanlarını genişləndirir

Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli -coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır. Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir. Bu, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

Hazırda dünyanın bir sıra ölkələri tərəfindən Azərbaycanın tranzit imkanları yüksək qiymətləndirilir. Məsələn, Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit potensialından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəli olduğu bildirilir. Ona görə də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması ölkəmizin mühüm tranzit uğurlarından sayılır. Bu marşrut 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının birgə təşəbbüsü ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa ölkələrinə qədər uzanır.

Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan hazırda regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Avropa İttifaqı ölkələri ilə bu sahədə uğurlu əməkdaşlıq həyata keçirilir. Ölkəmizin ərazisindən keçən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişlidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları həmin nəqliyyat dəhlizlərinin imkanlarını daha da genişləndirir. Bu imkanlar fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır. Statistik göstəricilər də bu fikri təsdiqləyir. Belə ki, 2018-ci ildə Azərbaycan ərazisindən 9,3 milyon ton tranzit yük daşınıb və tranzit qeyri-neft məhsullarının həcmində 49 faiz artım qeydə alınıb.

Yeri gəlmişkən, qeyd edək ki, 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti hazırda Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bu, həm də beynəlxalq əməkdaşlıq formatı yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir. Bu günlərdə mətbuata müsahibəsində Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi bütün tərəflər üçün sərfəlidir. Lakin Rusiyadan Aralıq dənizindəki Mersin limanınadək daşımalar da Rusiya üçün yaxşı perspektivlər açacaq. Çünki bu ölkənin iqtisadiyyatı üçün Avropaya yükdaşımalarında marşrutların diversifikasiyası böyük maraq kəsb edir. Rusiyanın yükdaşımalarının 80 faizi Türkiyə ərazisinə dənizlə həyata keçirilir. Qalanları isə avtomobil nəqliyyatı vasitəsilə reallaşdırılır. Amma indiyədək dəmir yolu ilə yükdaşımaları olmayıb. Lakin Azərbaycanın sayəsində sentyabr ayında bu marşrutla da yüklər daşınacaq və yaxın iki il ərzində yükdaşımaların həcmini 500 min tona çatdırmaq mümkün olacaq. Azərbaycanın nəqliyyat infrastrukturu bütün maraqlı ölkələrə böyük tranzit imkanları yaradır.

Burada bir məqamı da qeyd etmək istərdik. Avrasiyanın mərkəzində, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək yolunun vacib ölkələrindən biridir. Müasir dövrdə Azərbaycan öz tarixi ənənələrinə söykənərək, beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında fəal iştirak edir.

Xatırladaq ki, ulu öndər Heydər Əliyev Azərbaycanın coğrafi və iqtisadi imkanlarını düzgün qiymətləndirərək, ölkəmizin beynəlxalq ticarət daşımalarında fəal iştirakı ilə bağlı əməli işlər görüb. Bu istiqamətdə dahi öndərin təşəbbüsü ilə 1998-ci ilin sentyabrında Bakıda 13 beynəlxalq təşkilat və 32 dövlət nümayəndə heyətlərinin iştirakı ilə "TRACECA – tarixi İpək yolunun bərpası" beynəlxalq konfransı keçirilib. Məhz bu önəmli tədbirdə Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulub.

Ümummilli liderin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanın hərtərəfli inkişafı ilə paralel, ölkəmizin nəqliyyat-tranzit potensialının müasirləşdirilməsi istiqamətində nəhəng layihələr reallaşdırılır. Azərbaycandakı 6 beynəlxalq hava limanı, Bakı yük terminalı, Ələt Ticarət Limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ölkəmizin nəqliyyat-tranzit sahəsində qısa müddətdə əldə etdiyi uğurlardır.

Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.

Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub.

Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə səfəri zamanı "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan "İpək yolu iqtisadi" kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan rəsmiləri müxtəlif görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin bu təşəbbüsə təkcə siyasi dəstək verməklə kifayətlənmədiyini, həm də onun icrasına özünün iqtisadi potensialı və nəqliyyat-tranzit imkanları ilə əməli töhfələr verməyə hazır olduğunu bəyan ediblər.

Prezident İlham Əliyev bu barədə deyib: "Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyimizdən bəhrələnərək biz Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırdıq. Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Altı beynəlxalq hava limanı müasir nəqliyyat infrastrukturunun yaradılmasına növbəti töhfəmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Nəqliyyat Reytinq Agentliyi tərəfindən ən yaxşı regional hava limanı kateqoriyasında beş ulduza layiq görülüb. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir".

Onu da vurğulayaq ki, Azərbaycan müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla mühüm nəqliyyat mərkəzinə çevrilməklə bərabər, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığı genişləndirir. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında münasibətlərin dərinləşdirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü də nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub beynəlxalq layihələrinin həyata keçirilməsi çərçivəsində çox fəal əməkdaşlıq edir. Məsələn, 2018-ci ildə Şərq-Qərb marşrutu üzrə ölkəmizin ərazisindən keçməklə, ümumi çəkisi 9 milyon tondan çox olan tranzit yüklər daşınıb. Qeyri-neft məhsullarının tranzitində daha güclü artım müşahidə olunub. Bu artım 49 faizə bərabərdir. Şimal-Cənub marşrutu üzrə yüklərin tranzitinin həcmində 8 dəfə artım qeydə alınıb.

Bu ilin birinci yarısında da ölkəmizin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Cari ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. Şimal-Qərb və Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, yanvar-iyul aylarında Şimal-Qərb nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. Şərq-Qərb nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Bu rəqəmlər bir daha göstərir ki, tranzit yolların genişlənməsi davam edir, ticarət dövriyyəsi artır, bu da son nəticədə bütövlükdə Azərbaycanın, eləcə də regionun firavanlaşmasına doğru aparır.

V.BAYRAMOV

DƏNİZ

30 avqust 2019-cu il № 61-64 (9343)

Qafqazın logistika və tranzit məkanı

Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə açıq dənizə çıxışı olmayan Azərbaycan ölkələri birləşdirir

Əlverişli coğrafi mövqeyindən yararlanaraq Avrasiya məkanının mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan həm də Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi qəbul edilir.

Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyin təminatına töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan isə bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir. Yəni artıq nəqliyyat-logistika aspektində Azərbaycan regionun mərkəzi qovşağına çevrilib. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

Azərbaycanın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və 2018-ci ildə Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunəsidir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

3 il öncə hazırlanan logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində də bütün bunların reallaşması üçün hədəflər müəyyənləşib. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-2025-ci illər və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən edir. Sənəddə logistika üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflər konkret ifadəsini tapıb. Eyni zamanda həmin məqsəd və hədəflərə çatmaq üçün prioritetlər müəyyənləşdirilib. Daha konkret səviyyədə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanıb.

Nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi qarşıya qoyulan ən ümdə hədəflərdən biridir. Onu da əlavə edək ki, bu gün Azərbaycan dəmir yolu infrastrukturunun müasirləşdirilməsinə sərmayə yatırır. Çindən Avropaya və geriyə yükdaşımalar üçün ən qısa nəqliyyat marşrutu olan, Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmiryol xətti bunun əyani sübutudur.

Cənab İlham Əliyev bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən bildirib: "Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

Ölkənin tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində mühüm yer tutur. Son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində həyata keçirilən layihələrə nəzər yetirsək bunu aydın şəkildə görərik.

Bu gün mövcud nəqliyyat-tranzit imkanları Azərbaycana iqtisadi dividendlər qazandırmaqdadır. Təkcə bu ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. İqtisadiyyat Nazirliyində keçirilən geniş kollegiya iclasında nazir, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının sədri Şahin Mustafayev vurğulayıb ki, bu ilin birinci yarısında da ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib.

Bu dövr ərzində "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, 6 ayda "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Bu il aprelin 25-27-də Çin Xalq Respublikasının paytaxtı Pekində keçirilən "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat-tranzit imkanları və bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən vurğulamışdır ki, Azərbaycan dövləti müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla yalnız ölkəni mühüm nəqliyyat mərkəzinə çevirməyib, eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri layihələrində iştirak edən dövlətlər arasında əməkdaşlığa töhfə verib: "Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir".

Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü lap əvvəldən dəstəklədiyini söyləyən cənab İlham Əliyev vurğulayıb ki, bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Xatırladaq ki, Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb və müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən beynəlxalq layihələr regional əməkdaşlığın genişləndirilməsi üçün möhkəm əsaslar yaradıb. Lakin işğalçı Ermənistanla heç bir əməkdaşlıqdan söhbət gedə bilməz. Azərbaycanın ərazisindən keçən bütün beynəlxalq layihələrdən Ermənistan təcrid edilib. Bu siyasət münaqişə davam etdiyi müddətdə dəyişməyəcək, işğalçı ölkə çox ağır durumda qalacaq.

Rəşad BAXŞƏLİYEV

Axtarış əməliyyatlarına ASCO-nun gəmiləri də cəlb olunmuşdu

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin qəzaya uğradığı ilk gündən pilotun nəşi və təyyarənin qalıqlarının axtarışlarında fəal iştirak edən aidiyyəti qurumların nümayəndələrinə təşəkkürünü bildirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, axtarış əməliyyatlarına Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ilə birgə Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri, Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıcları və katerləri, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Vaqif Cəfərov" kran, "Neftəqaz-58" təchizat-yedək, "Məmməd Süleymanov" elmi-tədqiqat gəmilərinin heyətləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dalğıcları cəlb olunmuşdular.

"Xəzər beşliyi"nin iqtisadiyyat nazirlərinin görüşü Həştərxanda keçiriləcək

Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İranın iqtisadiyyat nazirlərinin beştərəfli görüşü II Xəzər İqtisadi Forumuna hazırlıq işləri çərçivəsində Həştərxanda keçiriləcək.

Həştərxanda çıxan "Volqa" qəzeti bildirir ki, bu barədə Rusiya İqtisadi İnkişaf nazirinin müavini Mixail Babiç regiona səfəri zamanı məlumat verib.

Babiç deyib: "Həştərxan vilayəti Xəzər regionunda fəaliyyətimizin paytaxtına çevrilir. Bu, Rusiyada çox mühüm fəaliyyət formatıdır. Gələn il nəzərdə tutmuşuq ki, Həştərxanda Xəzər regionunun iqtisadiyyat nazirlərinin görüşünü keçirək".

Nazir müavini bildirib ki, görüş II Xəzər İqtisadi Forumundan əvvəl keçiriləcək. "Hazırda hökumətin sərəncamının layihəsi hazırlanır və buna müvafiq olaraq, Həştərxan həmin tədbirin paytaxtı təyin edilib. Bu isə o deməkdir ki, Həştərxan həm kommunikasiyalar, həm də infrastruktur nöqteyi-nəzərindən bu bazarda RF-nin qapıları funksiyalarını yerinə yetirən regiondur", - deyə Babiç əlavə edib.

Avqustun 12-də RF-nin Baş Naziri Dmitri Medvedev növbəti Xəzər İqtisadi Forumunu Həştərxanda keçirmək təşəbbüsü ilə çıxış edib. Bu tədbir razılaşmaların reallaşdırılması və Xəzərdə əməkdaşlığın daha da möhkəmləndirilməsi prosesində mühüm addım olacaq.

ABŞ İrana məxsus tankeri qəbul edən limanları sanksiyalarla hədələyib

İranın "Adriana Dara" neft tankerini qəbul edən limanlara qarşı sanksiya tətbiq olunacaq.

Bu açıqlama ilə ABŞ-ın Dövlət Departamenti çıxış edib.

Xatırladaq ki, iyulun 4-də İranın neft tankeri heyəti ilə birlikdə Hibraltarda Böyük Britaniya tərəfindən həbs edilmişdi. Bir neçə gün sonra isə İran Hörmüz boğazına daxil olan Britaniyaya məxsus neft tankerini həbs etdi. Bundan sonra Britaniya məhkəməsi ABŞ-ın tələbinə baxmayaraq, İran gəmisini azad etdi. Rəsmi Vaşinqton İspaniya, Yunanstan və Tükiyəyə İranın "Adriana Dara" tankerinin yenidən həbs edilməsi tələbi ilə müraciət etdi. Lakin bu dövlətlər ABŞ-ın tələbinə məhəl qoymadılar. Bu gün isə ABŞ İran tankerini qəbul edən limanlara qarşı sanksiya tətbiq edəcəyini bəyan edib.

Rabil Kətanov

"Avraam Linkoln" gəmisində qəza baş verib

Amerikanın Hörmüz boğazındakı hərbi təyyarələri daşıyan "Avraam Linkoln" gəmisində qəza baş verib.

F-18 qırıcı təyyarəsi əməliyyat uçuşundan sonra gəminin göyərtəsinə enərkən əyləc sistemində nasazlıq yaranıb. Vaxtında və yerində dayana bilməyən təyyarə göyərtədəki digər təyyarələrə dəyib. Nəticədə 4 ədəd F-18 qırıcı və 1 ədəd E2D hərbi kəşfiyyat təyyarəsi tamamilə yararsız vəziyyətə düşüb. İnsan itkisi haqqında məlumat verilmir. Nəticədə ABŞ-ın hərbi dəniz qüvvələrinə 1 milyard dollara yaxın ziyan dəyib.

Tehran və Aşqabad dəniz nəqliyyatı üzrə birbaşa marşrut yaratmaq barədə razılığa gəliblər

Türkmənistan və İran arasında dəniz nəqliyyatı üzrə birbaşa marşrutun yaradılması ilə bağlı məsələlər müzakirə edilib.

I Xəzər İqtisadi Forumu çərçivəsində "Xəzər beşliyi"nin nəqliyyat idarələri rəhbərlərinin görüşündə Tehran və Aşqabad dəniz nəqliyyatı üzrə birbaşa marşrut yaratmaq barədə razılığa gəliblər.

Bununla bağlı sənəd oktyabr ayında Aşqabadda keçiriləcək sammitdə imzalanacaq. Tərəflər arasında vizaların sadələşdirilməsi, dəniz mühitinin qorunması məsələlərinin müzakirəsi də gözlənilir.

İlahə Əhmədova

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsinə 907,4 min manat sərf edilib



2019-cu ilin birinci yarısında vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 907,4 min manat və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 32 faiz az vəsait sərf olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, bu vəsaitin 80 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 20 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənib.

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 130,9 milyon ədəd balıq körpələrinin 127,8 milyon ədədi bitki ilə qidalanan balıqlar, 2,6 milyon ədədi çəkimilər, 0,3 milyon ədədi nərəkimilər, 0,2 milyon ədədi qızıl balıqlar olub.

Balıqlar süni mərcan qayalıqlarında çox asanlıqla məskunlaşa bilər

İsrailin Texnologiya İnstitutu və Bar-İlan Universitetinin alimlərindən ibarət tədqiqatçılar qrupu 3D çap vasitəsilə bütün dünyada mərcan qayalarının bərpası üçün bir sistem yaradıblar. Bu sistem vasitəsilə ətraf mühitin və suyun temperaturunun təsirinə məruz qalmayacaq süni mərcan qayaları hazırlamaq mümkündür.

hightech.fm saytı xəbər verir ki, mərcan qayaları mütəmadi olaraq məhvə məruz qalır. Bunun bir çox həm təbii, həm də antropogen səbəbləri vardır. Tədqiqatçılar bunun əsas səbəblərindən biri kimi iqlim dəyişikliyini göstərirlər.

Yeni yaradılan texnologiya hazırda İsrailin Eylat sahillərində tətbiq olunur. Tədqiqatçıların sözlərinə görə, 3D çapının köməyilə zəngin sualtı ekosistemi bərpa etmək mümkün olacaq.

Çap olunmuş 3D qayalar təbii mərcan qayalarını təqlid edərək müxtəlif növ balıqların diqqətini çəkə biləcək. Alimlərin fikrincə, balıqlar bu süni mərcan qayalıqlarında çox asanlıqla məskunlaşa bilər.

Suda quraşdırılan 3D printerdə polilaktik kimyəvi turşusundan, qarğıdalıdan hazırlanan bioloji aktiv bioplastikadan, maniokdan və şəkər qamışından istifadə olunur.

Nikel daşıyan yük gəmisi İndoneziya sahillərində fəlakət siqnalı verib

Nikel daşıyan yük gəmisi İndoneziya sahillərində fəlakət siqnalı verib və bundan sonra onunla bir daha əlaqə yaratmaq mümkün olmayıb.

Sinxua informasiya agentliyi xəbər verir ki, bu barədə yerli hakimiyyət orqanları bildirib.

Göyərtəsində 25 nəfərin olduğu "MV Nur Allya" adlı gəmi ilə bağlı insident avqustun 25-də baş verib. Axtariş-Xilasetmə Əməliyyatları üzrə Milli Mərkəzin nümayəndəsi Yusif Lətif hadisə zamanı gəminin Cənub-Şərqi Sulavesi əyaləti istiqamətində hərəkət etdiyini və Buru adası yaxınlığından keçərkən fəlakət siqnalı verdiyini deyib.

Əlverişsiz hava şəraiti ilə əlaqədar gecə saatlarında axtarış-xilasetmə əməliyyatı dayandırılıb. Bazar ertəsi axtarışlar davam etdirilib.

Dünya okeanının səviyyəsi artdıqca suyun altında qalmaq təhlükəsi ilə üzləşən sahilyanı zonalar da artır

Amerika alimləri iqlim dəyişmələri səbəbindən potensial təhlükə yaradan rayonlardan insanların mütəşəkkil köçürülməsini nəzərdə tutan "geri çəkilmə" konsepsiyasını irəli sürüblər.

Söhbət, ilk növbədə, qasırğa və fırtınaların təsirinə məruz qalan, habelə dünya okeanının səviyyəsinin qalxması üzündən suyun altına getmək təhlükəsi ilə üzləşən sahilyanı zonalardan gedir. Mütəxəssislər hesab edirlər ki, dövlətlər və beynəlxalq təşkilatlar həm maliyyə, həm də sosial aspektlərin nəzərə alındığı köçürülmə proqramları işləyib hazırlamalıdırlar.

"russian.rt.com" saytı xəbər verir ki, konsepsiya müəlliflərinin fikrincə, belə yanaşma nəinki iqtisadi nəticələri yumşaltmağa, həm də müəyyən strateji məsələləri həll etməyə imkan verəcək. Tədqiqatçılar hesab edirlər ki, köçürülmə əvvəlcədən işlənib hazırlanmış plan üzrə mütəşəkkil aparılmalıdır. Onlar belə bir geniş yayılmış fikrə qarşı çıxırlar ki, iqlim dəyişmələri səbəbindən getdikcə daha da təhlükəli olan rayonlardan insanların köçürülməsi ən son tədbirdir.

Mütəxəssislər deyiblər: "Artıq məsələ bunda deyil ki, geri çəkilmə olacaq, ya olmayacaq. İndi söhbət bu prosesin necə, harada və hansı səbəblərə görə həyata keçiriləcəyindən gedir.

Alimlərin fikrincə, cəmiyyətin köçürülməyə münasibəti radikal şəkildə dəyişməlidir. Bu gün ictimai şüurda insanla təbiətin daimi qarşıdurması barədə təsəvvürlər hökmranlıq edir. Odur ki, sahilyanı ərazilərdən köçürülmə məğlubiyyət kimi qəbul edilir. Bəşəriyyət təbiətə bu cür münasibəti dəyişməli və planetimizdə baş verən proseslərə fəal surətdə uyğunlaşmalıdır.

Amerika alimlərinin fikrincə, gələcəkdə geri çəkilməyə özündə yeniliyi əsaslı araşdırma, prosesin və onun bütün iştirakçılar üçün nəticələrinin qiymətləndirilməsi ilə birlikdə sınaqdan keçirməyə hazırlığı birləşdirən eksperimentçi yanaşma tələb edir.

İnsanların materiklərin içərisinə köçürülməsi bütün bəşəriyyətdən planlaşdırma və birgə fəaliyyət tələb edəcək. Məsələn, köçürülmə planları milli və qlobal iqtisadi planlara daxil edilməli, onların həyata keçirilməsi isə bütün yerli xüsusiyyətləri və konkret cəmiyyətlərin tələbatını nəzərə almalıdır".

Xəzərdə "Xocalı" gəmisi də üzəcək

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) alyans partnyoru olan "Caspian Marine Services"-in(CMS) donanmasına yeni "Xocalı" təchizat gəmisi daxil edilib.

"CMS"-dən "seanews.az" -a verilən məlumata görə, uzunluğu 82,00, eni 16 metr, dedveyti 3300 ton olan gəmi göyərtəsinə 1700 ton yük götürmək qabiliyyətinə malikdir.

Gəmi müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulub. Yeni təchizat gəmisi yanacaq, sürtkü yağı, qələvi məhlul, özül yağı, quru yük, içməli su, qazma məhlulu, konteyner, boru və bu kimi yükləri qəbul etmək üçün daha geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir. Müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlılıq sistemi ilə təchiz olunan "Xocalı" gəmisinin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmidə quraşdırılan yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərkən hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır.

"Xocalı" təchizat gəmisinin dizaynı "Rolls Royce Marine", inşası İtaliyanın "Rosetti Marino S.p,A" gəmiqayırma zavoduna məxsusdur.

"Aralın xilası bütün dünya birliyinin vəzifəsidir"

"ORIENT" saytının verdiyi xəbərə görə, Aral dənizinin quruması region-da təkcə ekoloji və iqtisadi fəlakətə səbəb olmayıb. Minlərlə ailə regionun "suyunun çəkilməsini" öz üzərlərində hiss ediblər.

Aral böhranının ana və uşaqların sağlamlıqlarına və qidalanmasına təsirini UNICEF-in və Türkmənistan Səhiyyə Nazirliyinin Tibb Sənayesi nümayəndələri dəyirmi masa arxasında müzakirə ediblər. Priaralye zonasına aid olan Daşoğuz və Lebap vilayətinin şimal hissəsindəki vəziyyətə xüsusi diqqət ayrılıb.

Həmin yerlərdə analaların sağlamlıq durumu və qidalanması ilə bağlı monitorinq keçirən "Sanigest" şirkətinin mütəxəssisləri ölkədə səhiyyə və ekologiya sahəsində aparılan siyasətin regiondakı vəziyyətə müsbət təsirini vurğulayıblar. Məruzə ilə çıxış edən Ana və Uşaq Sağlamlığının Mühafizəsi üzrə Elmi-Klinik Mərkəzin ekspertləri Lebapın şimalında aparılan tədqiqatların yekunlarını təqdim etməklə həmkarlarının nəticələrini təsdiqləyiblər.

Lakin ölkə nailiyyətlər qazanmağa istiqamət götürüb. Səhiyyə sistemində, qanunvericilik bazasında bundan sonrakı islahatlar və "Sağlamlıq" dövlət proqramının icrası, həmçinin profilli beynəlxalq qurumlarla, o cümlədən UNICEF-lə əməkdaşlıq yüksək nəticələr əldə etməyə kömək olacaq.

Bu gün Türkmənistan və BMT-nin Uşaq Fondu 2020-2025-ci illər üçün əməkdaşlıq üzrə birgə Ölkə proqramını işləyib hazırlayırlar. Sənəddə, həmçinin Aral dənizi regionundakı vəziyyətə daha çox kompensasiyanın ayrılması üzrə planlaşdırılmış tədbirlər öz əksini tapacaq.

Lakin UNICEF Türkmənistandakı nümayəndəsi Kristin Veyqandın qeyd etdiyi kimi, Aralın xilası bütün dünya birliyinin vəzifəsidir. Yalnız birgə səylərlə böhranın yaxın ərazilərə və ümumilikdə dünya ekologiya sisteminə mənfi təsirini azaltmaq mümkündür.

Doğma sahillərdən uzaqlarda üzən "Şair Vaqif" gəmisi əsaslı təmir olunub

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) xarici sularda istismar olunan "Şair Vaqif" universal quru yük gəmisi Ukraynanın "Çernomorsk ISRZ" Gəmi Təmiri Zavodunda əsaslı təmir olunub.

3 iyul-12 avqust tarixlərində gəminin avar-sükan kompleksi, baş mühərrikləri, separatorları, o cümlədən yanacaq, radionaviqasiya və xilasetmə sistemləri təmir edilib.

Bundan əlavə, gəminin bütün avtomatlaşdırılmış idarə sistemlərinin təmiri istiqamətində də ciddi işlər görülüb. Belə ki, "F-3000" yanğın və "SDS-48" tüstü siqnalizasiyaları, "SEMCO" lokal yanğınsöndürmə sistemi, qəza dizel generatoru və separatorlarının təmiri də həyata keçirilib.

Gəmi təmirdən sonra yenidən istismara qaytarılıb.

Qeyd edək ki, "Şair Vaqif" gəmisi 2016-cı ildən Azərbaycan bayrağı altında xarici sularda üzür. Uzunluğu 108,33, eni 16,74 metr olan gəmi 5200 ton yükgötürmə qabiliyyətinə malikdir.

Dəniz polisi 115 miqrantı xilas edib

Yunanıstanın Lesbos adasında missiya həyata keçirən Portuqaliyanın dəniz polisi Yunanıstanda 115 miqrantı xilas edib.

Portuqaliya KİV-nin verdiyi məlumata görə, xilas edilmiş miqrantlar Yunanıstan hakimiyyətinə təhvil verilib.

2014-cü ildən başlayaraq Portuqaliya "Poseydon" missiyasında iştirak edir və bu müddətdə dəniz polisi 5 765 nəfəri xilas edib.

Dəniz polisinin missiyası transsərhəd cinayətkarlığı ilə mübarizə üzrə Yunanıstanın və Avropa İttifaqının sərhədlərinin nəzarətini və müşahidəsini həyata keçirmək məqsədilə Yunanıstan Sahil Təhlükəsizlik Xidmətinin dəstəklədiyi Avropanın "Frontex" agentliyinin sərhədyanı "Poseydon" əməliyyatının tərkib hissəsidir.

Nigar Cəfərli

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması və fəaliyyəti müzakirə edilib

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə daşınan yüklərin təhlükəsizliyini və sərnişinlərin rahatlığını təmin etmək məqsədilə işçi qrupu yaradılıb.

Bu barədə İranın Şəhərsalma və yollar naziri Məhəməd İslami məlumat verib.

O bildirib ki, avqustun 15-də Soçidə İran, Azərbaycan və Rusiyanın nəqliyyat nazirləri arasında görüş keçirilib. Görüşdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşması və fəaliyyəti müzakirə edilib. Qərara alınıb ki, tərəflər birgə müəssisələr yaradaraq yük və sərnişinlərin daşınmasında fəal iştirak etsinlər.

Nazir bildirib ki, müzakirələr səmərəli olub və tərəflər prinsipial məsələlərə dair razılığa gəliblər.

Rabil Kətanov

Dünyanın bütün əsas dinləri tolerantlığı və ortaq humanizm ruhunda dinc birgə yaşamı dəstəkləyir

BMT-nin Baş katibi Antoniu Quterreş dini mənsubiyyət və inancına görə zorakılığa məruz qalmış qurbanların xatirəsinə həsr olunmuş beynəlxalq gün ilə bağlı müraciət edib.

Müraciətdə deyilir: "Son bir neçə ayda dini mənsubiyyət və inancına görə hədəfə alınan şəxslərə və qruplara qarşı artan hücumların şahidi olduq. Yəhudilər sinaqoqlarda qətlə yetirilib, onların məzarları svastikalarla təhqir olunub, müsəlmanlar məscidlərdə güllələnib, onların ibadət yerləri dağıdılıb, xristianlar ibadət zamanı öldürülüb və kilsələri yandırılıb.

Yeni Zelandiya, Şri-Lanka və Amerika Birləşmiş Ştatlarında olduğu kimi, bir çox hücumlar məqsədyönlü şəkildə ibadət yerlərini hədəfə alıb. Suriyadan tutmuş Mərkəzi Afrika Respublikasına qədər, bir çox münaqişələrdə bütün icmalar məhz inanclarına görə hücuma məruz qalıblar.

Dünyanın bütün əsas dinləri tolerantlığı və ortaq humanizm ruhunda dinc birgə yaşamı dəstəkləyir. Biz, qərəzli şəkildə dindən istifadə edərək yanlış təsəvvürlərin yaradılmasına, ədavətə təşviq edənlərə, qorxu və nifrətin yayılmasına çağıranlara müqavimət göstərməli və bunları rədd etməliyik. Müxtəliflik zənginliyin və gücün mənbəyidir, o heç vaxt təhlükə yaratmır.

Bu gün, tarixdə ilk dəfə olaraq biz dini mənsubiyyəti və inancına görə zorakılığa məruz qalan qurbanların xatirəsinə həsr olunmuş beynəlxalq günü qeyd edirik.

Bu gün biz dini mənsubiyyəti və inancına görə zorakılığın qurbanına çevrilənlərə sarsılmaz dəstəyimizi bir daha bəyan edirik. Dəstəyimizi bu cür hücumların qarşısını almaq üçün əlimizdən gələni edərək və günahkarların məsuliyyətə cəlb olunmasını tələb edərək göstəririk.

Birləşmiş Millətlər Təşkilatı bu sahədə öz səylərini iki yeni təşəbbüs çərçivəsində genişləndirir – Nifrət nitqinə dair BMT-nin ilk strategiyası və fəaliyyət planı, eləcə də dini yerlərin qorunması üçün fəaliyyət planı. Dini mənsubiyyətə və inanca görə zorakılıq təhdidini aradan qaldırmağın ən yaxşı yolu səylərimizi birləşdirmək, nifrət mesajlarına sülh mesajları ilə cavab vermək, müxtəlifliyi qəbul etmək və insan haqlarını qorumaqdır.

Dünya antisemitizm, müsəlmanlara qarşı nifrət, xristian və digər dini qrupların təqibi, eləcə də irqçilik, ksenofobiya, ayrı-seçkilik və zorakılığa təhrikin bütün formalarını aradan qaldırmaq üçün səylərini artırmalıdır. Bəşər övladı olaraq qarşılıqlı anlaşmanı təşviq etməliyik.

Hər kəsin bir-birinə qayğı göstərmək, müxtəlifliyə hörmət etmək və sülh içində birgə yaşamaq məsuliyyəti var".

Hipersürətli silahların yayılması onsuz da nəzarətdən çıxmış silahlanma prosesini daha qorxunc hala gətirəcək

BMT yeni dəhşətli silah növünün – ultramanevrli hipersəsli uçan aparatların yayılacağından narahatdır. ABŞ, Çin və Rusiyanın fəal şəkildə hazırladıqları və sınaqdan keçirdikləri bu aparatların beynəlxalq sülhə və təhlükəsizliyə böyük təhdid olacağı bildirilir.

BMT-nin saytı xəbər verir ki, təşkilatın ekspertləri bu silah növü ilə bağlı hazırladıqları hesabatda raket tipli bu təhlükəli aparatların hazırlanmasını güclü dövlətlər arasında silahlanma yarışının yeni mərhələsi kimi qiymətləndirirlər. Onlar qeyd edirlər ki, ultramanevrli hipersəsli planlayan aparatların tətbiqi məsələsinə də aydınlıq gətirilməyib. "Raket başlıqlarının xarakterinin (onlar nüvə və adi başlıqlar ola bilər), habelə potensial hədəflərin gizli saxlanılması göstərir ki, ən yüksək sürətə malik olacaq bu aparatlar böyük təhlükə mənbəyi olacaq", -deyə hesabatda vurğulanır. Müəlliflər onlardan nüvə zərbələri üçün istifadə olunacağı ehtimalının daha yüksək olduğunu da bildirirlər.

Digər tərəfdən, hesabatda yeni silah növünün beynəlxalq nəzarətdən kənarda olması da göstərilir. Qeyd olunur ki, hətta onların məhdud sayda yerləşdirilməsi, sınaqlarının keçirilməsi də atom silahları üzrə balansı ciddi şəkildə poza bilər. BMT ekspertləri diqqətə çatdırıblar ki, ABŞ-da bu cür aparatların hazırlanması üzrə bir neçə proqram həyata keçirilir.

Ultramanevrli hipersəsli uçan aparatlar üzərində işlər hələ 1980-cı illərdə Sovet İttifaqında aparılıb. Onun bugünkü variantı olan "Avanqard" raket kompleksi isə, Rusiya Prezidenti V. Putinin bildirdiyinə görə, 2019-cu ilin sonunda istismara buraxılacaq. Artıq Çində hipersürətli raketlərin doqquz sınağı keçirilib və onlardan altısı uğurlu olub. Fransa, Yaponiya və Hindistan da bu silah növünə böyük maraq göstərirlər.

Hesabata ön söz yazan BMT baş katibinin müavini İzumi Nakamitsu bildirib ki, bu silahların hazırlanması və sınaqları, habelə gələcəkdə istifadəsi təhlükəli nəticələr doğura bilər. Onun sözlərinə görə, hipersürətli silahların yayılması onsuz da nəzarətdən çıxmış silahlanma prosesini daha da qorxunc hala gətirəcək.

Xəzər bölgəsi turistlərin sevimli məkanına çevrilə bilər

İstər dəniz kruizləri, istərsə də çimərliklər baxımından mövcud olan böyük potensialdan səmərəli istifadə etməliyik

Rusiyanın Baş Naziri Dmitri Medvedyev Xəzər dənizinin böyük turizm potensialına malik olduğunu bildirib. Medvedyev Türkmənbaşı şəhərində keçirilən Xəzər İqtisadi Forumunda çıxışı zamanı vurğulayıb ki, Xəzər dənizi hövzəsində turizmi inkişaf etdirmək üçün yeni infrastruktur yaradılmalıdır.

Baş nazir qeyd edib ki, Xəzər regionunun gözəl təbiəti, zəngin tarixi və mədəniyyəti buranın populyar turizm istiqamətlərindən birinə çevrilməsinə imkan yaradır. Ekspertlərin hesablamalarına görə, Xəzər sahillərində hər il bir milyona yaxın turist istirahət edə bilər. D.Medvedyevin fikrincə, bunun üçün əlavə infrastruktur tikilməli, rəqabətqabiliyyətli turizm məhsulları, o cümlədən liman şəhərlərinə həsr olunmuş səyahət marşrutları tərtib edilməlidir.

Rusiya hökumətinin başçısı Həştərxan gəmiçilərinin "Pyotr Veliki" gəmisini artıq suya buraxdıqlarını və gəmidə tamamlama işlərinin getdiyini deyib. Onun sözlərinə görə, gəmi ilk səyahətə gələn il çıxacaq, Xəzəryanı dövlətlərin limanları, yaxud Xəzər dənizi, Qara dəniz və Azov dənizi boyu marşrutu üzrə hərəkət edəcək.

Xəzəryanı dövlətlər arasında əmtəə dövriyyəsinin bir neçə dəfə artırılacağını vurğulayan D.Medvedyevin sözlərinə görə, Rusiya ilə Xəzəryanı dövlətlər arasında əmtəə dövriyyəsi son illər 3,5 faiz artıb.

Xəzərin turizm potensialından yararlanmaq üçün biz nə etməliyik?

Turizm üzrə ekspert Rəhman Quliyev bizimlə söhbətində bildirdi ki, Xəzərlə başqa ölkələrə kruizlərin təşkili Xəzərin turizm potensialından yararlanmamız üçün prioritet məsələdir: "Mən kruizlərin təşkilini turizmin inkişafı üçün ən başlıca amillərdən hesab edirəm. İş adamlarına şərait yaratmaq, investisiyalar qoymaq lazımdır ki, dəniz vasitəsilə daşımaçılıq inkişaf etdirilsin. Eyni zamanda 5 Xəzəryanı ölkənin sahil liman şəhərlərindən istifadə edərək, turist mübadiləsi aparmaq mümkündür. Kruizlər Azərbaycana Rusiyadan, Həştərxandan turist axınının artmasına səbəb olacaq. Bu vacib məsələlərdən biridir".

"Ən yaxşı çimərlik Azərbaycandadır"

Ekspert deyir ki, Xəzərin ən yaxşı çimərliyi Azərbaycan tərəfə düşür: "Biz bundan səmərəli istifadə edə bilsək, ölkəyə turist axınını artıra bilərik. Bununla yanaşı, Azərbaycana uçuşlar

təşkil edən aviaşirkətlərlə danışıqlar aparmaq lazımdır. İkitərəfli qaydada deyil, birtərəfli qaydada biletlərin ucuzlaşdırılması üçün mümkün variantlardan istifadə etmək lazımdır. Yaxud bu gün Bakı-Moskva təyyarəsinə bilet 200 manatdırsa, geri dönüş biletləri nisbətən ucuz olmalıdır. Eyni zamanda Qazaxıstan hava yollarında güzəştlər edilməlidir. Əgər biz istəyiriksə turist axınını çoxaldaq, aviaşirkətlərlə mütləq danışıqlara nail olmalıyıq. Ona görə də indidən bu sahədə işlərə başlamaq lazımdır. Bununla yanaşı, sərfəli və keyfiyyətli otellərin sayını çoxaltmalıyıq. Dünya təcrübəsində belə hallar çox olur. 20 il bundan əvvəl Bodruma gedəndə hər şey indiki qədər gözəl deyildi. Həmin vaxt orada otel tipli yerləşdirmə məntəqələrinin sayı çox az idi. Amma indi orada olan otellərin sayı-hesabı yoxdur. Bu, qarşıya qoyulan hədəf idi. Onlar qısa müddət ərzində bu hədəfə nail oldular. Düzgün strateji hədəflər qarşıya qoymaqla, biz də məqsədlərimizə nail ola bilərik. Düzdür, məsələn, bir neçə il əvvələ qədər Qəbələdə cəmi bir neçə otelə rast gəlmək olurdu. Amma indi irili-xırdalı onlarla otel və mehmanxana tikilib. İstənilən halda, görülən işlərlə qane olmaq olmaz. Növbəti illər ərzində bu artım tendensiyası davam etdirilməlidir. Ekonom büdcəli otellərin inşasına şərait yaradılmalıdır. Çünki buna büdcəsi çatmayan turistlər də var. Əgər onları nəzərə almasaq, həmin turistləri itirərik. Belə olan təqdirdə, Azərbaycan turistlərin yaddaşında bahalı ölkə kimi qalacaq".

"Bölgələrimizdə çimərlik əraziləri artırılmalıdır"

Azərbaycan Turizm Assosiasiyasının icraçı direktoru Əhməd Qurbanov deyir ki, Xəzərin turizm potensialından yararlanmaq üçün ilk növbədə çimərliklərin infrastrukturunu yüksək səviyyəyə gətirmək lazımdır: "Bizdə artıq ictimai çimərliklər yaradılır. Amma bunlar daha geniş şəkildə bütün Xəzəryanı sahil ərazisində olmalıdır. Çimərliklər normalara uyğun yaradılmalıdır. Həm turistlər, həm də yerli vətəndaşlar çimərlikdən istifadə edərkən təhlükəsizlik məsələləri və sanitar-gigiyenik normalara da riayət olunmalıdır. Eyni zamanda, sahilyanı ərazilərin təmizliyinə, sözügedən ərazilərdə obyektlərə nəzarət edilməlidir. Bunlar yüksək səviyyəyə gətirirlərsə, Xəzərin turizm potensialından yararlana bilərik".

Həmsöhbətimiz də hesab edir ki, kruizlərin təşkili Azərbaycana turist axınını artıra bilər: "Kurizlərin təşkilinə artıq başlanılıb. Amma bu iş daha da sürətləndirilməlidir. Bütün bu saydıqlarımız təkcə Bakıya deyil, bölgələrə də aiddir. Cənub bölgəsi, Mingəçevir ərazisi, Nabranda ekoloji təmizliyə, sanitar qaydalara riayət olunmalıdır. Nabranda obyektlər var, amma çimərlikləri yararsız vəziyyətdədir. Müəyyən qrup turistlər var ki, çimərlikləri sevirlər. Bu səbəbdən bölgələrimizdə də eyni şəkildə çimərlik əraziləri artırılmalı və nəzarət gücləndirilməlidir".

"Xəzərdə üzən mehmanxana fəaliyyət göstərəcək"

Məlumat üçün bildirək ki, 2020-ci ilin payızına qədər Xəzər dənizində bir neçə kruiz səfərlərin həyata keçirilməsi planlaşdırılır. Kruizin "Böyük Pyotr" teploxodunda həyata keçiriləcəyi nəzərdə tutulub. "Mosturflot" turoperatorunun mətbuat katibi Aleksandr Filimonov mətbuata açıqlamasında bildirib ki, gəmi azı bir il gecikmə ilə istifadəyə veriləcək: "Xəzər dənizində kruiz səfərlər üçün tələbat artıq indidən çox yüksəkdir. 2020-ci ilin payızına qədər Xəzər dənizində bir neçə səfərlər həyata keçirməyi planlaşdırırıq. Qışda teploxodu Soçiyə göndərmək istəyirik, çox güman ki, o, üzən mehmanxana kimi fəaliyyət göstərəcək".

"Şərq xəzinələri" kruizi 11 gün, 10 gecə üçün nəzərdə tutulub. Gəmi Bakı (Azərbaycan), Bəndər-Ənzəli (İran), Nouşəhr (İran), Türkmənbaşı (Türkmənistan), Aktau (Qazaxıstan), Həştərxan (Rusiya), Mahaçqala-Dərbənddə (Rusiya) dayanacaq.

Tikilməkdə olan teploxodda 155 eyvanlı kayut və 12 lüks kabinə olacaq. Gəmi 310 sərnişin üçün nəzərdə tutulub.

Aygün ƏZİZ,
"Kaspi"

"Mikayıl Müşfiq" gəmisinin heyəti "Müşfiqli günlərim" xatirə kitabını qiymətli hədiyyə kimi qəbul edib

Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər xanımın yadigarı Leyla Axundzadə ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus "Mikayıl Müşfiq" universal quru yük gəmisində qonaq olub.

Kapitan Yavər Abdunov qonağı gəminin iştirak etdiyi layihələr, qazandığı nailiyyətlər haqqında ətraflı məlumatlandırıb. Bildirib ki, heyət Mikayıl Müşfiqin adını daşıyan gəmidə çalışmaqdan böyük qürur və məsuliyyət hissi duyur.

Anasının müəllifi olduğu "Müşfiqli günlərim" xatirə kitabını və Mikayıl Müşfiqin seçilmiş əsərlərindən ibarət kitabı heyətə bağışlayan Leyla xanım gələcəkdə gəmidə xüsusi guşənin yaradılması işinə dəstək ola biləcəyini deyib. O, qonaqpərvərliyə görə minnətdarlığını bildirib və gəminin heyətinə uğurlu səfərlər arzulayıb.

Qeyd edək ki, "Mikayıl Müşfiq" universal quru yük gəmisinin uzunluğu 123,50, eni 15 metr, sürəti 11,7 uzel, yükgötürmə qabiliyyəti 3850 tondur.

Daşıyıcılar miqrantları suya ataraq qaçıb aradan çıxmağa çalışıblar

Son vaxtlar qeyri-leqal miqrantların Mərakeşdən İspaniyaya çatdırılmasının yeni üsulu populyarlaşır.

Bu barədə İspaniya KİV-ləri hüquq mühafizə orqanlarına istinadla məlumat yayıblar.

Daşıyıcılar bunun üçün hidrosikllərdən istifadə edirlər. Belə ki, bu yolla "müştəri" cəmi üç dəqiqə sonra Seutda olur. Bu "xidmətin" qiyməti 500-1000 avro civarındadır.

İspaniya Mülki Qvardiyası ötən həftə Mərakeş vətəndaşları olan iki daşıyıcını həbs edib. Onlar qeyri-leqal miqrantları hidrosikllərdə İspaniya sahillərinə çatdırmaqla məşğul olublar. Onlardan biri yeniyetmədir. Daşıyıcılar agentləri gördükləri üçün miqrantları suya ataraq qaçıb aradan çıxmağa çalışıblar.

Nigar Cəfərli

Azərbaycan manatının dövriyyəyə buraxılmasından 27 il ötür

Milli pul vahidimiz olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.

Ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 15 iyul tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulub.

Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrda 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrda 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib. Yeni dizaynla 1 və 10 manatlıq əsginaslar da həmin şirkətdə istehsal olunub.

1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunub. Həmin dövrdə Mərkəzi Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zərurətə çevrilib. Bu baxımdan ümummilli lider Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli "Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanı mühüm rol oynayıb. Bu fərmanla manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması təsbit edilib və Azərbaycanın rubl zonasından çıxması təmin olunub.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10 min manatlıq, 1996-cı ildə isə 50 min manatlıq əsginaslar çap etdirilərək dövriyyəyə buraxılıb.

1994-cü ildə Almaniyada "Giesecke & Devrient" şirkəti tərəfindən istehsal edilən 10 min manatlıq əsginasın üzərində "Şirvanşahlar" kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilib.

İngiltərənin "De La Rue" şirkəti tərəfindən çap edilən 50 min manat dəyərində əsginaslar 1996-cı ildən dövriyyəyə buraxılıb və bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi – "Mömünə Xatun türbəsi", arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilib.

2001-ci ildə "De La Rue" şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əsginas buraxılıb. Bu əsginas Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilib. Əsginasın dizaynında ənənəvi çərçivələr və ornamentlər istifadə olunub.

Ümumilikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əsginas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il fevralın 7-də "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat (AZN) 5000 köhnə AZM-ə bərabər tutulub. AZM və AZN birgə 1 il ərzində – 2006-cı ildə dövriyyədə olub və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edilib. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmayıb və hazırda da bu proses xırda həcmdə olsa da davam edir.

Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub. Yeni manatın dizaynı ilə bağı müsabiqənin qalibi Avstriyanın "OeBS" şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

Ötən il mayın 23-də yeni 200 manatlıq pul nişanı təqdim olunub. Pul nişanının dizaynı hazırlanarkən müsabiqədə ABŞ şirkəti "Crane Currency" tərəfindən təqdim olunan dizayn qalib seçilib. Bu dizayna bir sıra şirkətlərin təqdim etdiyi mütərəqqi mühafizə sistemləri inteqrasiya edilməklə pul nişanı "Giesecke+Devrient" şirkətində istehsal olunub.

200 manatlıq kağız pul nişanının üzərində ölkəmizin, paytaxtımızın ən müasir simvollarından biri olan Heydər Əliyev Mərkəzinin əzəmətli təsviri, mərkəzin əsas eksteryer və interyerinin dizayn elementləri, milli xalça nümunələrinin elementləri, digər milli ornamentlər əks edilib.

13 il keçməsinə baxmayaraq, milli pul nişanlarımız estetik görünüşünə, konseptual mövzusuna, müasirliyinə görə öz aktuallığını qoruyur. Azərbaycan Mərkəzi Bankı nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır.

Miqrantlar arasında ölüm hallarının yarısından çoxu Karib dənizində gəmilərin qəzaya uğraması nəticəsində baş verib

Venesuelada siyasi və iqtisadi xaos 2019-cu ildə ölüm hallarının xeyli artmasına şərait yaradıb.

Bunu Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi Coel Millman avqustun 16-da bəyan edib. O deyib ki, 2015-ci ildən etibarən Venesuelanı 4 milyondan çox adam tərk edib.

Təşkilatın təsdiq etdiyi məlumata görə, bu il 89 venesuelalı ölüb. Ötən il miqrantlar arasında qeydə alınmış 384 ölüm faktı ilə müqayisədə bu il avqustun 14-dək Şimali və Cənubi Amerikada ümumən 514 ölüm faktı qeydə alınıb. Yəni, miqrantlar arasında ölüm halları xeyli artıb. BMT nümayəndəsi onu da bildirib ki, ABŞ-Meksika sərhədində ölüm hallarının səviyyəsi son 6 ildə elə də ciddi dəyişməyib və əvvəlki kimi, bir gün üçün təqribən 1 miqrant təşkil edir.

Miqrantlar arasında ölüm hallarının yarısından çoxu Karib dənizində gəmilərin qəzaya uğraması və yaxud onların çayı uğursuz keçmələri nəticəsində baş verib. Ölüm hallarının təqribən 65-i yol-nəqliyyat qəzaları nəticəsində baş verib. Təqribən 20 nəfər dəmiryolu marşrutlarında susuzlaşmadan və ya zorakılığa məruz qaldığı üçün, xəstəlikdən və ya tibbi yardımın olmamasından ölüb.

Yusif Babanlı

İlk günlər Avropa ölkələrindən heç biri "Open Arms" gəmisindəki miqrantları qəbul etməyə razı deyildi

İspaniya hökuməti "Open Arms" gəmisindəki miqrantların paylanması sxemində iştirak edəcək.

İspaniya yerli "Open Arms" qeyri-hökumət təşkilatının Liviyadan gələn xilasetmə gəmisindəki miqrantların bir hissəsini qəbul etməyə razıdır. Gəmidə 147 miqrant var.

İspaniya qəzaya uğramış gəmidə olan insanları həvəssiz salamlayıb. İspaniyanın sahil zonası Mərakeşdən gələn miqrantlarla bağlı yetərincə təzyiq hiss etdiyi üçün onlar İtaliyada gəmidən düşməli olublar. İspaniyanın Baş Naziri Pedro Sançes gəmi ilə bağlı problemin həllinə dərhal kömək etmək üçün Avropa Komissiyası tərəfindən əlaqələndirilən miqrantların paylanması modelində iştirak etməyə razılaşıb.

İspaniya ilə bərabər, Fransa və Almaniya da bildiriblər ki, gəmi ilə bağlı vəziyyəti həll etmək üçün ictimai təsisatlarla əlaqələri dəstəkləyirlər. Miqrantların bir hissəsini Fransa və Almaniya qəbul edəcəklər.

Qeyd edək ki, qəzaya uğramış "Open Arms" gəmisi təqribən 2 həftə İtaliyanın Lampeduza adası yaxınlığında körpüyə yan almış vəziyyətdə olub. Belə ki, Avropa ölkələrindən heç biri gəminin içərisindəki miqrantları qəbul etməyə razı olmayıb.

Nigar Cəfərli

Bankomat kartı geri qaytarmırsa...

Bəli, bu, xoşagəlməz olsa da, tamamilə həll ediləcək bir problemdir. Belə olan halda yalnız necə hərəkət etməyi bilməyiniz vacibdir.

"tonkosti.ru" saytı "inadçı" bankomatla baş verən belə hallarda karınıza gələcək bir neçə sadə məsləhəti diqqətinizə çatdırır.

Bankomat niyə kartı geri qaytarmır?

Bunun bir neçə - həm ciddi, həm də mənasız səbəbi ola bilər.

Kart maqnitsizləşib; PİN-kod bir neçə dəfə ardıcıl olaraq səhvən yeridilib; Kartın müddəti keçib, yaxud bloklanıb; Siz ayrılan vaxt başa çatdıqda kartı geri götürməmisiniz; Aparılan əməliyyat şübhə yaradıb (məsələn, bütün vəsaitin hesabdan çıxarılması); Bankomat qırılıb, yaxud "donub".

İlk növbədə nə etməli?

Siz nəyinsə qaydasında olmadığını dərhal başa düşdükdə "Ləğv" düyməsini basın. Bəzi hallarda bu variant kömək edir və bankomat kartı qaytarır.

Məbada bankomatdan aralanmayın. Onun sadəcə olaraq "donması" tamamilə mümkündür, aparat 10-20 dəqiqədən sonra "özünə gələ" və kartınızı sizə qaytara bilər. Əgər asanlıqla problemi həll etmək sizə nəsib olmadısa, o zaman digər vasitələri sınaqdan keçirin.

Kartı "udan" sizin bankınızın bankomatıdırsa

Bu halda geri qaytarma proseduru çox sadədir, lakin vaxt tələb edir. Beləliklə, hərəkətlərin ardıcıllığını təqdim edirik.

Banka zəng edərək insident barədə xəbər verin. Kartın geri qaytarılması üçün hansı sənədlərlə haraya müraciət etməyiniz barədə sizi məlumatlandıracaqlar. Əlaqə telefonu bankomat üzərində qeyd olunmalıdır.

Yaxşı olardı ki, kart bloklansın. Bu halda siz kartdan üçüncü şəxsin istifadə etməyəcəyinə əmin olacaqsınız.

Mümkünsə əlinizin altında bankınızın əlaqə nömrəsini gəzdirin. Məsələn, nömrəni mobil telefonunuzun yaddaşına qeyd edin. Həmçinin kartınızın nömrəsini, istifadə müddətini və gizli sualı yadınızda saxlayın.

Kartı "udan" sizin bankınızın bankomatı deyilsə

Mütləq kartı bloklayın; Sizin probleminizdə təqsiri olan bankomatın məxsus olduğu banka zəng edin və kartın geri qaytarılma qaydasını dəqiqləşdirin. Əlaqə telefonu bankomat üzərində qeyd olunmalıdır; Baş verən vəziyyət barədə öz bankınıza xəbər verin. Kartın geri qaytarılması üçün sizin bankdan təsdiqləyici məktub lazım ola bilər.

Yadda saxlayın! Baş verən hal xoşagəlməzdir, lakin pulların itməsi deyil. Kartınızda saxlanılan vəsait sizin hesabınızda qalacaq. Ehtiyac yarandığı halda daim bankınıza müraciət edə və kassadan sizə lazım olan məbləği ala bilərsiniz.

"Saudi Aramco" dünyanın ən gəlirli neft şirkətidir

Səudiyyə Ərəbistanının "Saudi Aramco" milli neft şirkəti 2019-cu ilin birinci yarısının nəticələrinə görə dünyanın ən gəlirli şirkəti olub.

"Saudi Aramco" şirkətinin rəsmi məlumatına görə, şirkətin xalis gəlirlərinin 46,9 milyard dollara qədər (12 faiz) azalmasına baxmayaraq, "Saudi Aramco" ən gəlirli neft şirkətidir. İlin birinci yarısında onun ümumi gəliri bir il bundan əvvəlki 167,68 milyard dollardan 163,88 milyard dollara qədər aşağı düşüb. Bununla belə, "Saudi Aramco"nun gəliri dünyanın digər iri neft korporasiyasının gəlirlərindən dəfələrlə çoxdur.

"Saudi Aramco" şirkətinin Baş direktoru Amin Naser bildirib ki, 2019-cu ilin birinci yarısında neftin qiymətinin bir qədər aşağı düşməsinə baxmayaraq, şirkət sabit gəliri və güclü azad pul axınını təmin etməyə davam edib. Qeyd olunub ki, gəlirin azalması əsasən neftin orta satış qiymətinin bir barel üçün 69 dollardan 66 dollara enməsi ilə əlaqədardır.

Şirkətin 2019-cu ilin altı ayında neft hasilatı sutkada 10 milyon barel təşkil edib.

Asya Hacızadə

Okeanın dibində 3800 metr dərinlikdə yerləşən "Titanik"in bəzi parçaları tamamilə çürüyüb

"DSV Limiting Factor" sualtı qayığındakı beynəlxalq dayverlər komandası batmış "Titanik" gəmisinin yanına son 15 ildə ilk dəfə enərək aşkar edib ki, gəminin bəzi parçaları tamamilə çürüyüb.

BBC-nin verdiyi xəbərə görə, "Titanik"in qalıqlarının yanına sonuncu dəfə 2005-ci ildə eniblər.

"Titanik" Atlantik okeanının dibində 3800 metr dərinlikdə yerləşir. Gəminin bir hissəsi hələ də yaxşı vəziyyətdədir, lakin 15 il əvvəl okeanın dibində olan bəzi fraqmentlər daha yoxdur. Buna güclü okean axınları, metalı yeyən duz və mikroorqanizmlər səbəb olub.



Gəminin sağ bortuna, zabitlər üçün otaqların yerləşdiyi bölməyə daha çox ziyan dəyib.

Özünü "Titanik"in tədqiqinə həsr etmiş tarixçi Parks Stivensonun sözlərinə görə, gördükləri onu şoka salıb. O deyib: "Kapitan vannası həmişə "Titanik" həvəskarlarının ən sevimli fraqmenti olub. Onun fotoşəkilləri bizim aramızda çox populyar idi. İndi isə o, daha yoxdur. Bütün göyərtə, onunla birlikdə xidməti otaqlar həmin tərəfdən dağılır və vəziyyət getdikcə daha da pisləşəcək".

Ekspertin fikrincə, gəminin burun hissəsindəki qonaq otağının tavanı çökə bilər. Bundan sonra içəriyə baxmaq daha mümkün olmayacaq.

Britaniyaya məxsus "Titanik" transatlantik layneri öz dövrünün ən böyük sərnişin gəmisi olub. Sauthemptondan Nyu-Yorka istiqamət götürən "Titanik" 1912-ci ilin aprelində aysberqlə toqquşmadan sonra Kanada sahillərindən təqribən 600 kilometr məsafədə batıb. Gəminin içərisindəki 2200 sərnişin və komanda üzvündən 1500-dən çoxu həlak olub. Gəminin ikiyə bölünmüş hissələri bir-birindən 600 metr məsafədə okeanın dibində yerləşir.

Şimal Buzlu Okeanında buzların sahəsi 19,8 faiz azalıb

Qütb dairəsi arxasındakı meteostansiya Arktikada tarixin ən yüksək temperaturunu müəyyən edib.

"nat-geo.ru" saytı xəbər verir ki, Milli Okean və Atmosfer Tədqiqatları Administrasiyasının (NOAA) məlumatına görə, İsveçdə, Qütb dairəsindən şimalda yerləşən meteoroloji stansiyada iyul ayında Arktika regionu üçün rekord temperatur – 34,8 dərəcə Selsi (94,6 dərəcə Farengeyt şkalası ilə) isti qeydə alınıb.

Rekord temperatur iyulun 26-da Qütb dairəsinin cənub kənarında yerləşən, İsveçin kiçik Markusvins istehkamında müəyyən edilib. İqlimşünas Dik Arndt bəyan edib ki, bu göstəricilər İsveç Meteoroloji İnstitutu tərəfindən təhlil edilib və yoxlanılıb.

Şimal Buzlu Okeanında buzların sahəsi 19,8 faiz azalıb. Bu, 2012 və 2015-ci illərdə qeydə alındığından da çoxdur. Həmin dövrdə də rekord temperaturlar müəyyən edilmişdi.

İqlimşünas Robert Rode bildirib ki, 90 faiz ehtimalla 2019-cu il müşahidələr dövrü tarixində yalnız 2016-cı ildən geri qalaraq ikinci ən isti il olacaq.

9200 metr dərinliyədək suyun tərkibində mikroplastiklər və plastik çöküntü araşdırılacaq

Yaponiya Milli Tədqiqatlar İnstitutu okeanın dərinliklərinə yayılaraq ekosistemə mənfi təsir göstərən plastik tullantıların tədqiqi ilə bağlı böyük elmi layihəyə başlayacaq.

Yaponiya Dəniz Geologiji Elmlər və Texnologiyalar Agentliyi bu məqsədlə apreldə xüsusi qrup yaradıb.

Bildirilir ki, üç həftəlik dövrü əhatə edəcək layihəyə avqustun 28-də start veriləcək. Layihə Tokionun cənubunda yerləşən Saqami körfəzində və Yaponiya paytaxtının şərqindəki Boso yarımadası ətrafında həyata keçiriləcək.

Alimlər dənizin 1200 metr dərinliyindən başlayaraq 9200 metr dərinliyədək suyun tərkibində mikroplastikləri və plastik çöküntünü araşdıracaqlar. Həmçinin mikroplastiklərin nə vaxtdan dənizdə toplanmasını və dəniz heyvanlarının mədəsində onları aşkarlamağın mümkünlüyünü tədqiq edəcəklər.

Xarici gəmilər Filippin sularından keçmək üçün icazə almalıdır

Filippin Prezidenti Rodriqo Duterte xəbərdarlıq edərək bildirib ki, bu ölkənin sularından icazəsiz keçən gəmilər bunun nəticəsini hiss edəcək.

Bu barədə "Manila Bulletin" qəzeti Prezidentin rəsmi nümayəndəsinə istinadla məlumat yayıb.

Nəşr qeyd edir ki, R.Dutertenin xəbərdarlığı bu yaxınlarda Çinin beş hərbi gəmisinin Tavi-Tavi əyalətinə daxil olan Sibutu adası yaxınlığından ölkə hökumətinə bildirmədən keçməsindən sonra səslənib. Həmin vaxt gəmilərin avtomatik eynilaşdırma sistemini söndürdüyü güman edilir.

"Prezident bildirir ki, gələcəkdə baş verə biləcək anlaşılmazlıqdan yayınmaq üçün bu gündən başlayaraq Filippinin bütün ərazi sularından keçən gəmilər həmin addımı atmazdan əvvəl dövlət strukturlarını xəbərdar edərək müvafiq icazə almalıdır", - deyə Prezidentin rəsmi nümayəndəsi Salvador Panelo bildirib.

S.Panelo təsdiq edib ki, xarici gəmilər icazəsiz şəkildə ölkənin sularından keçərsə, hakimiyyət orqanları Prezidentin əmrini yerinə yetirərək hərbi güc tətbiq edə bilər. Həmin gəmilər müvafiq qurumlar tərəfindən saxlanılaraq ölkə sularından çıxarılacaq.

Prezidentin nümayəndəsi əlavə edib ki, Çinin hərbi gəmilərinin ölkə sularından icazəsiz keçməsi dostluq addımı deyil və BMT-nin dəniz hüququ konvensiyasının pozulması deməkdir.

Vüqar Ağayev

Sudan kərə yağının analoqu hazırlanıb



ABŞ-ın Nyu-York ştatında yerləşən Kornell Universitetinin alimləri

əsas tərkibi sudan ibarət olan az kalorili kərə yağının analoqunu əldə ediblər.

Universitetin saytı xəbər verir ki, kimyaçılar bitki yağı və süd piyi qatılmış böyük həcmdə suyu tərkibi kərə yağına yaxın emulsiyaya çevirə biliblər. Həmin məhsulun tərkibində süni stabilizatorlar yoxdur və o, kərə yağından 75 faiz daha az kaloriyə malikdir. İmitasiyanın bir xörək qaşığında 2,8 qram piy və 25,2 kalori olduğu halda, analoji həcmdə yağda 11 qram piy və təxminən 100 kalori var.

Tədqiqatın aparıcı müəllifi Alireza Abbaspurradın sözlərinə görə, alimlər məhsulun dadını və digər qida xüsusiyyətlərini dəyişə, onu vitaminlərlə zənginləşdirə də bilərlər.

İmitasiyanın əldə olunması üçün istifadə edilən texnologiyanın sağlamlığa faydalı məhsulların alınmasında vacib rol oynaya biləcəyi vurğulanır.

Gəmidə baş verən yanğın nəticəsində azı yeddi nəfər həlak olub

İndoneziyanın mərkəzi hissəsində yerləşən Cənub-Şərqi Sulavesi əyalətinin sahillərində gəmidə baş verən yanğın nəticəsində azı yeddi nəfər həlak olub, dörd nəfər isə itkin düşüb.

Bu barədə Milli Axtarış və Xilasetmə Agentliyinin rəsmi nümayəndəsi Yusuf Latif məlumat yayıb.

Bildirilir ki, həlak olanlar arasında iki uşaq da var. Hadisənin baş vermə səbəbləri barədə hələlik məlumat verilmir.

Vüqar Ağayev

Qəzaya güclü külək səbəb olub

Çinin Şandun vilayətində gəminin batması nəticəsində 7 nəfər ölüb, 2 nəfər itkin düşüb.

Vilayət hökumətinin məlumatına görə, qəzaya güclü külək səbəb olub.

Hazırda itkin düşənlərin axtarışları aparılır.

Şahin Cəfərov

İki sərnişin gəmisi toqquşub

Nigeriyada iki sərnişin gəmisinin toqquşması nəticəsində ən azı 3 nəfər ölüb, daha iki adam itkin düşüb.

"Sinxua" agentliyi xəbər verir ki, insident ölkənin ən iri şəhərlərindən biri olan Laqosun sahillərində baş verib.

Laqos şəhərinin Su nəqliyyatı idarəsinin rəisi Oluvadamilola Emmanuel jurnalistlərə müsahibəsində bildirib ki, göyərtələrində 18 nəfər olan iki sərnişin gəmisi Oco ştatındakı İreve çayının mənşəyində toqquşub. Onun sözlərinə görə, dalğıclar suya düşən 13 nəfəri xilas edə biliblər, bir qadın və azyaşlı isə itkin düşüblər.

İlkin məlumata görə, insidentin səbəbi su nəqliyyatı vasitələrinin ehtiyatsız idarə olunması və sürət həddinin aşılmasıdır.

Yeni göl aşkar edilib

Rusiyanın Krasnodar diyarında yerləşən Qafqaz qoruğunun ərazisində ekspedisiyada olan qrupun iştirakçıları buzlağın geri çəkildiyi yerdə yeni gölün yarandığını aşkar ediblər.



Bu barədə Qafqaz qoruğunun mətbuat xidməti məlumat yayıb.

Məlumatda deyilir: "Açipsta çayı hövzəsində, Çelipsi buzlağının geri çəkildiyi yerdə kiçik cavan göl aşkar edilib. Həmin sututar əvvəllər heç bir xəritədə göstərilməyib. Bu fakt qlobal istiləşmə nəzəriyyəsini, yəni hazırda buzlaşmanın pozulması və buzlaqlardan yeni göllərin əmələ gəlməsi proseslərinin getdiyini növbəti dəfə təsdiq edir.

Heyrətamiz və təhlükəli çimərliklər

Günəşli yay havası, dəniz və çimərlik...Mənalı istirahət etmək üçün daha nə lazımdır? Lakin planetimizdə bir çox yerlər yalnız kənardan çox cazibəli görünür. Əslində isə onların bir çoxu ölüm saçır.

"Populyarnaya mexanika" saytı planetimizdəki ən təhlükəli sahilyanı bölgələri təqdim edir. Bu yerlərdə siz ölüm təhlükəsi ilə üzləşə bilərsiniz.

Qadağan olunmuş Sentinel adası

Hind okeanının Benqal körfəzində - Andaman arxipelaqının arasında kiçik Şimali Sentinel adası var. Bu adaya getmək olduqca çətindir. Heç bir balıqçı sizi asanlıqla oraya aparmağa razı olmaz. Amma kimsə balıqçını yola gətirərək adaya gedərsə, elə qumun üzərində onlarla metr məsafədə ölümdən qaçmağa çalışacaq. Çünki qısa müddətdən sonra bədənində ox yaraları hiss edəcək. Yaralı səyahətçi ona ox atan hirsli "sərhədçiləri" görməyəcək. Hücumlar cəngəlliklərdən və heç bir xəbərdarlıq olmadan gələcək.

Burada dünyanın ən qeyri-qonaqpərvər xalqlarından biri - sentinellilər yaşayır. Heç kim onların sayını dəqiq bilmir və nədən bu qədər aqressiv olduqlarını da anlamır. Ehtimal edilir ki, aborigenlər bu vaxtadək oddan istifadə etmir, onların kinli olması isə keçmişdə yaşadıqları acı təcrübə ilə bağlıdır. Bu regionda Britaniya müstəmləkəçiləri çoxlu qəddarlığa yol veriblər və yerli əhalinin əcnəbilərə, xüsusən ağdərililərə qarşı nifrətinə səbəb olublar. Hindistan öz yurisdiksiyası altında olan Şimali Sentinel əhalisini assimilyasiya etmək istəmir və onların hüquqlarını qoruyur.

Skeletlər adasında ideal çimərlik

Afrikanın cənubunda yerləşən Skeletlər adasında ucsuz-bucaqsız qumluqlar o qədər "ölüdür" ki, hər hansı zülal orqanizmi çox asanlıqla bir çox yırtıcıların yeminə çevrilir. Burada tez-tez şirlərə, çaqqallara və qəbireşənlərə rast gəlmək olar. Sularda isə köpək balıqları qaynaşır. Adama elə gəlir ki, bu yırtıcılar üçün adada yem tapmaq çətindir. Amma onları balıqlarla qıdalanan suitiləri cəlb edir. Bu ərazidə onların sayı həddindən çoxdur.

Lakin insanlar okeandan uzaqdakı dəniz məməlilərinin əhatəsində olsa belə, onları yenə də ölüm gözləyir. Ətrafda, hətta 10 kilometrlərlə məsafədə içməli su tapa bilməyəcəksiniz, yağışlar isə bir neçə ildən bir yağır. Şübhəsiz ki, burada ucsuz-bucaqsız və mənzərəli qumluqlar, təlatümlü okean və qəzaya düşmüş gəmilərin qalıqları ecazkar panorama yaradır. Amma adaya yollanmaq sizin həyatınız bahasına başa gələ bilər. Qitə tərəfindən gəldiniz zaman yolunuz o qədər də dost olmayan ölkələrdən keçəcək. Bu ölkələrdə silahlı münaqişələr davam edir. Dəniz tərəfdən isə adaya yollanmağa cəhd etməsəniz yaxşıdır. Gəmilərin parçalanmış korpusları ətrafa dağılıb, onların bir çoxu qatı duman və soyuq su axını nəticəsində istiqamətini itirərək sualtı qayalara çırpılıb. Yeri gəlmişkən, kiçik qayıqda adaya yollanmaq mümkün deyil, çünki dalğaların gücü sizi sahilə atacaq.

Ən yavaş ölüm

Sakit okeanın qərb hissəsində çoxlu sayda mərcan adaları – atollar yerləşir. Onların çox qəribə forması var, səthi yumşaq qumlarla örtülmüş bu çimərliklər zahirən göz oxşayır.

Eyni zamanda, dəniz heyvanlarının minillik "əməyini" də unutmaq olmaz. Onlar bu gözəlliyin yaranması üçün əsrlərboyu səy göstəriblər. Bu adalardan biri çox cazibəli ada məlikdir. Amma Bikini adlanan adada üzərinizdə paltar olmadan qumların üzərində gəzmək məsləhət görülmür. 60 il bundan əvvəl Bikini adasında 67 nüvə sınağından sonuncusu həyata keçirilib. Lakin hətta uzun müddət keçməsinə baxmayaraq, adada gəzmək təhlükəlidir. Burada uzun müddət yaşayan insanlar normadan 6 dəfə çox olan radiasiya fonu ilə üzləşə bilərlər. Şübhəsiz ki, bu qədər radiasiya dozası insanı birdən-birə öldürmür. Lakin adada uzun müddət qalan turistlər yaxın illərdə xərçəng xəstəliyinə tutula bilərlər. Ən təhlükəlisi isə, küləyin sovurduğu tozu udmaqdır. Çünki bu tozla birlikdə ağciyərə daxil olan radioaktiv hissəciklər daxili orqanların fəaliyyətinə daha mənfi təsir göstərir.

Ölümdən də pis ola biləcək vəziyyət

Qorxulu və təhlükəli çimərliklərin heç də hamısı ekzotik ölkələrdə yerləşməyib. Onların bəzilərinə Avropada da rast gəlmək olar. Böyük Britaniyanın Steytes kəndi yaxınlığında yerləşən çimərlik bir çox turistləri cəlb edə bilər. Lakin bu sahillər

öz populyarlığı, habelə iqlim amilləri ucbatından Yer kürəsinin ən çirklənmiş yerlərindən biridir. Çoxlu məişət tullantıları və digər zəhərli maddələr dənizi çimmək üçün əlverişsiz etməklə yanaşı, qumları da təhlükəli edir. Belə ki, suya girdiyiniz zaman siz çoxlu bakteriya infeksiyaları ilə yoluxa bilərsiniz. Qumun üstündə ayaqyalın gəzmək isə hətta kiçik yara olan ayağınızın irinləməsinə səbəb olacaq. Zərərçəkənlər ölüm təhlükəsi ilə üzləşməyəcək, amma ongünlük səpkili qızdırma və ya bir həftəlik diarreya sizi buraya səyahət etmənizə peşman edəcək.

Dünyanın bir çox ölkələrində də analoji məkanlar mövcuddur. Məsələn, Hindistandakı Mumbay ştatında Çoupatti Biç çimərliyində olduğu kimi. Buradakı bir çox çimərliklər həddindən artıq zərərlidir. Dominikan Respublikasındakı El Qrinqo çimərliyindəki qumluqda gəzinti isə, təkcə sizin müxtəlif yaralara məruz qalmağınızla deyil, həmçinin ciddi dozada kanserogen maddələr və ağır metallar qəbul etməyinizlə nəticələnə bilər. Bu rayondakı çoxsaylı kimya və farmasevtika zavodları bugünədək öz zəhərli tullantılarını sahilə axıdır. ABŞ-dakı çimərliklər də ekoloji fəlakətlərdən qurtula bilməyib. Kaliforniyadakı Poçe-Biç bir neçə il ard-ard avtomobil və aqrosənaye tullantılarının zərərli təsirinə məruz qalıb. Ekologiya təşkilatları uzun illər boyu onların acı nəticələrini aradan qaldırmalı olacaqlar.

Gizli ölüm

Avstraliyanın şərqində yerləşən Freyzer adası dünyanın ən bol qumlu sahillərindən biridir. Onun təbiəti möcüzəli və mənzərəlidir. Qum təpələri yuxarıya doğru 240 metr yüksəkliyə qalxır və ekvatorial meşələrlə örtülüdür. Onların arasında çoxlu kiçik "asma" göllər mövcuddur. Sakit okeana doğru uzanan 100 kilometrlik sahil olduqca cəzbedicidir. Lakin burada dalğalara çox yaxınlaşmaq məsləhət görülmür. Freyzerin ətrafında çoxlu sayda kubomeduzalar, xüsusən meduza İrukanciləri var. Bu dəniz canlıları isə heç də sizin rastlaşmaq istədiyiniz növdə heyvanlar deyil. Onların hücumu turistlərin okeanın isti suyu içərisindəki rahat istirahətini fəlakətə çevirə bilər.

Məsələ burasındadır ki, bu canlıların bədəni şəffafdır və onların 1 metr uzunluğunda iynəli burunları var. Onları suda və ya qumun üzərində görmək mümkün deyil. İrukancilərin iynəsindəki zəhər təsirini tədricən göstərir və sizi sancdıqda bunu hiss etmirsiniz. Lakin bir neçə dəqiqədən sonra bədəninizdə ard-arda iflic effektləri baş verir. Eyni zamanda, başağrısı, aşağı və yuxarı ətrafların əzələlərində və daxili orqanlarda dəhşətli ağrılar, mədə bulantısı başlayır. Bundan sonra ürək-damar xəstəlikləri – taxikardiya və hipertoniya baş qaldırır. Bütün bunlar isə ağciyərdə və beyində problemlərlə və ən sonda ölümlə nəticələnir. Ümumiyyətlə, Avstraliyada çoxlu zəhərli ilanlar, o cümlədən dəniz canlıları var. Freyzer adasından başqa kubomeduzaların müxtəlif növlərinə bu qitənin digər sahilyanı bölgələrində də rast gəlmək olar.

YARIZARAFAT, YARIGERÇƏK

Əliəyri adamlar əlil sayılmalıdır?

İndiki zamanda kiməsə bel bağlamaq bel bağlamamaq kimi bir şeydir.

Sənin əlindən yaxşılıq, mənim əlimdən pislik gəlmir. Nə olacaq axırımız?

Ədəb-ərkanı olmayanın ədəbi söhbətlərindən nə fayda?

Hər kəsin başı var. Sadəcə, işlədən azdır.

Uşaqlara uşaqlıq dünyasını versək, uşaqlar bizə dünyanı verərlər.

Kitabsız olduğumuz günlərdə başqa günlərdən daha çox itiririk.

Nə böyük danış, nə də böyük olan yerdə danış.

Səni yaşadacaq bir şey etməmisənsə, heç ölməyə də haqqın yoxdur.

Özünə yazığı gəlməyən başqalarından da mərhəmət ummamalıdır.

Dünyanın bir gözü kor, bir qulağı kardır. Təkcə dişlərinin haması yerindədir.

Su, çörəkdən üstün tutulmalıdır.

Bekar adam yoxdur. İşi olanlar işlə, işləmək istəməyənlər onlara problem yaratmaqla məşğul olurlar.

Pis vərdişlərimizlə hər gün ömrümüzdən nə qədərsə kəsirik.

Sağ əlin verdiyindən sol əlin xəbəri olmadığı üçün sol əlin hörməti yoxdur?

Dili yaxşı bilməyənlər bir-biri ilə dil necə tapsınlar?

Dünyanın ən yaxşı adamı olsan belə, daha yaxşı olmağa çalış.

Hər sözün öz çəkisi var.

Əvvəllər yaxşılığa da, pisliyə də yaxşılıqla cavab verirdilər. İndi yaxşılığa da pisliklə cavab verirlər, pisliyə də.

Bir deşiyin gəmini batıra biləcəyinə inanmırsansa, inanma. Amma yoxlamaq üçün gəmidə deşik açma.

Üzə bilmədiyi üçün dərinliyə çox getmir?

Bir o qalıb ki, vannada çimən də özünü dənizçi saysın.

Bəzilərinə elə gəlir ki, söz mənim üçün müqəddəs olduğuna görə, heç kəsə söz vermirəm.

Öz dünyasını qurmaq istəməyənin öz daxması da olmaz.

Bir xanımın təkcə qadın olduğuna görə çiyninə düşən yük bütün kişilərin yükündən ağırdır.

Zorla evləndirilənlərin "şirin çay"ı bir ömür acı dadır.

Əbədi olmasa, yatmaq yaxşı şeydir.

Onsuz da danışacaqsa, kimsəni yalan danışmağa məcbur etmək lazım deyil.

Deyəsən qoyunla qurd arasında "sülh sazişi" daha çox çobana sərf elə-mir axı?..

Çox adamın ən çox başı heç nədən çıxmır.

İndi kiminsə adamı olmaqdan daha çox adam olmaq vaxtıdır.

Yaltaqlar əkizlərdən daha çox bir-birinə oxşayırlar.

Adam var, ağzında sözdən başqa, hər şey qalır.

Şansımız həmişə olur. Hətta sıfra bərabər olanda da.

Bəzisi sözünün üstündə heç buzun üstündə dayana bildiyi qədər də dayanmır.

Hətta düz olsa da, vaxtında verilməyən cavabın faydası olmaz.

Sadə yaşamaq istənilən təmtəraqlı həyat tərzindən qat-qat yaxşıdır. Səksəkələrdən uzaq olursan.

Yaxşı insan olduğunuzu başqalarına yox, sizə deyənlərə əsla inanmayın.

Məndən xoşu gəlməyən adamların heç birindən incimirəm. Heç özümün də özümdən xoşum gəlmir.

Vəzifə üçün yaxa cıranlar vəzifəyə keçənədək ən azı, neçə köynək dəyişirlər?

Baş ki, əyilməyə başladı, artıq baş olmur.

Ya mərd ol, ya da özün bilərsən.

Rasif TAHİROV

Turun mərkəzi və sonuncu qarşılaşması “Səbail” və “Qarabağ” klubları arasında olacaq

Futbol üzrə Azərbaycan Premyer Liqasının üçüncü turu iki günü əhatə edəcək.

Tura avqustun 31-də “Qəbələ”–“Keşlə” oyunu ilə start veriləcək. Günün ikinci oyunu isə “Zirə” və “Sabah” komandalar arasında baş tutacaq.

Sentyabrın 1-də iki oyun ilə Premyer Liqanın üçüncü turuna yekun vurulacaq. Günün birinci oyununda “Neftçi” və “Sumqayıt” üz-üzə gələcəklər. Turun mərkəzi və sonuncu qarşılaşması isə “Səbail” və “Qarabağ” klubları arasında olacaq.

Qeyd edək ki, “Qəbələ”–“Keşlə” oyunu saat 18:30-da, “Zirə”–“Sabah” 20:30-da, “Neftçi”–“Sumqayıt” 19:00-da, “Səbail”-“Qarabağ” qarşılaşması isə 21:00-da başlayacaq.

Turun bütün oyunları “CBC Sport” kanalında canlı yayımlanacaq.

Dənizçilər arasında üzgüçülük yarışı keçirilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) işçiləri arasında üzgüçülük yarışı keçirilib.

ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin təşkilatçılığı ilə gerçəkləşən yarışda ümumilikdə 25 dənizçi iştirak edib. Yarış ASCO-nun Təlim-Tədris Mərkəzində baş tutub.

Turnirdə “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun əməkdaşı Rauf Kazımov birinci, Xəzər Dəniz Neft Donanmasının əməkdaşı Rəşad Məmmədov ikinci, İstehsalat Xidmətləri İdarəsinin əməkdaşı Orxan Nəcəfov üçüncü yerə çıxıb. Qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

Üzgüçülük turnirinin keçirilməsində məqsəd dənizçilərin sağlamlığını möhkəmləndirmək, onları bədən tərbiyəsi və idman məşğələlərinə cəlb etməklə asudə vaxtlarının səmərəliliyini təmin etmək, eləcə də ən yaxşı idman kollektivlərini müəyyənləşdirməkdən ibarətdir.

Şahmat gələcəkdə Avropa Oyunlarının proqramına salına bilər

Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviç şahmatın Avropa Oyunlarının proqramına daxil edilməsi perspektivləri ilə bağlı fikirlərini bölüşüb.

TASS agentliyi xəbər verir ki, o, müsahibəsində şahmatın gələcəkdə Avropa Oyunlarının proqramına salınması üçün perspektivlərin olduğunu bildirib: “İndiyədək şahmatın Avropa Oyunlarının proqramına daxil edilməsi haqqında razılığa gələ bilməmişik. Amma bunun üçün perspektiv var. Şahmat Afrika və Asiya oyunlarının proqramında olub və daha sonra çıxarılıb. Fasilədən sonra şahmat ilk dəfə rəsmi olaraq Mərakeşdə təşkil olunan Afrika Oyunlarının proqramına salınıb. Şahmat, həmçinin 2020-ci ildə

keçiriləcək Asiya Oyunlarının proqramında da yer alıb”.

Avropa Oyunları 2015-ci ildən etibarən hər dörd ildən bir keçirilir. Bu nüfuzlu turnir Avropa Olimpiya Komitələrinin nəzarəti altında Avropa qitəsinin idmançıları arasında keçirilən regional beynəlxalq idman yarışdır. İlk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda, ikincisi 2019-cu il iyunun 21-30-da Minskdə keçirilib. Növbəti oyunlar isə 2023-cü ildə Polşanın Krakov şəhərində təşkil ediləcək.

Günvurma

Yay mövsümündə ən çox müşahidə edilən hallardan biri də günvurmadır. Günün çox hissəsini açıq havada keçirmək, günəş altında fasiləsiz şəkildə fiziki işlə məşğul olmaq günvurma təhlükəsi ilə üz-üzə qoyur.

Təbii ki, günvurmaya qarşı zəruri olan tədbirlər hər kəsi maraqlandırır. Xüsusilə yaşlılar, uşaqlar və xroniki xəstəlikdən əziyyət çəkənlərin isti havada xəstələnməməsi üçün bir sıra tədbirlərin görülməsi vacibdir. Lakin istidən qorunmaq tədbirləri təkcə həmin kateqoriyadan olanlara yox, həm də tam sağlam olanlara da aiddir.

Həkim-terapevt Gülnarə Məmmədovanın fikrincə, yüksək təzyiqdən, endokrin sistemi xəstəliklərindən, ürək ritminin pozulmasından əziyyət çəkənlər və çəki artıqlığı olanlarda günvurma halları daha çox müşahidə olunur. Həmin kateqoriyadan olanlar isti günəş şüaları altında çox qalmamağa çalışmalıdırlar. Lakin hansısa zərurətdən buna məcbur olduqda mütləq qoruyucu vasitələrdən, məsələn, papaq, baş örtüyü, çətir və s. istifadə etmək lazımdır. Onlar həmişə öz yanlarında sərin su gəzdirməli və çoxlu maye qəbul etməlidirlər".

Günvurma nəticəsində orqanizmdə ciddi problemlər yarana bilər, ürəkbulanma, gözün qaralması, güclü başağrıları və bəzən də qusma halları baş verir.

Zərərçəkənə göstərilməsi zəruri olan ilk tibbi yardım tədbirləri barədə həkim-terapevt deyib: “İlk növbədə günəşin təsirinə məruz qalan xəstəni sərin və kölgəli yerə çəkmək, üst geyimlərini yüngülləşdirmək lazımdır. Bədən hərarətini aşağı salmaq üçün ona soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək lazımdır. Başına, boynun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə buz və ya bu mümkün olmadıqda soyuq su ilə islatma qoyulmalıdır. Huşunu itirdiyi halda zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda isə süni tənəffüs vermək tələb olunur. Bundan sonra mütləq həkimə müraciət etmək lazımdır”.

Çempionat həm də Olimpiadaya namizədlərin adlarını müəyyənləşdirəcək

Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra – sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Federasiya xəbər verir ki, zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Dünya çempionatı “Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

Qazlı sudan aşırı dərəcədə istifadə insulta səbəb olur

Qida rasionumuza daxil olan qazlı suyun sağlamlığa necə təsir göstərdiyi təəssüf ki, çox vaxt diqqətdən kənarda qalır. Mütəxəssislər gündə 1 şüşə qazlı su içilməsinin xüsusilə uşaqların yaddaşının pisləşməsinə aparıb çıxardığına səbəb olduğunu söyləyirlər. Ona görə də həkimlər uşaq yaşlarında şirin qazlı sulardan istifadə edilməsini minimuma endirməyi məsləhət görürlər.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: “Yay aylarında günün isti saatlarında çox soyuq qazlı su içilməsi mədə-bağırsaq sisteminə olduqca mənfi təsir göstərir, çünki onun tərkibində qaz çox olduğuna görə orqanizmə daxil olaraq mədə və bağırsaqda köp yaranmasına səbəb olur”.

Aparılan laborator araşdırmaları göstərir ki, həddindən artıq şəkərli və qazlı su içənlərin qan təzyiqi çox vaxt yüksək olur. Hətta bir qədər artıq istifadə edilməsi insulta səbəb ola bilər. Üstəlik qazlı su şəkərli diabet xəstələrində şəkərin miqdarının artmasına səbəb olan içkidir və bu xəstəlikdən əziyyət çəkənlərə qadağan edilir.

Qida təhlükəsizliyi mütəxəssisləri şüşə qablarda olan su və su məhsullarının alınmasını məsləhət görürlər. Uzun müddət günəş şüaları altında qalan xüsusilə plastik qablarda olan su və su məhsullarının istinin təsiri altında miqrasiya edərək tərkibində olan kimyəvi elementləri suya keçirir və bu, orqanizmə mənfi təsir göstərir.

Orqanizmin suya olan tələbatını ödəməyin ən yaxşı yolu adi suyun qəbul edilməsidir. Gün ərzində orqanizmin tələbat duyduğu qədər rəngsiz və qatqısız su içilməsi sağlamlıq baxımından daha vacibdir.

Oturaq həyat tərzi sürənlər bir sıra qaydalara əməl etməlidirlər

Oturaq həyat tərzi sürənlər, xüsusən ofis işində çalışanlar tez-tez həzm sistemində olan problemlərlə üzləşirlər.

Belə şəraitdə fəaliyyət göstərənlərdə fiziki aktivlik passivləşir. Bu səbəbdən yenidən yüksək kalorili qidalar əzələlər tərəfindən istifadə edilmir və orqanizmə toplanır. Nəticədə isə artıq çəki problemi yaranır. Bununla üzləşməmək üçün qidalanma zamanı bir sıra qaydalara əməl etmək lazımdır.

Həkim-endokrinoloq Gülay Məmmədovanın dediyinə görə, ofis işində çalışanlar daim şəkərli qidalar və asan mənimsənilən şəkərlərdən istifadə edirlər. Lakin həmin qidaları quru meyvələr və yaxud qoz-fındıq və çərəzlərlə əvəz etmək daha yaxşıdır. Yağlı və xəmir yeməklərini, zülal tərkibli qidaları azaltmaq, fast-fud yeməklərlə qidalanmaqdansa onu meyvə və tərəvəz salatları ilə əvəz etmək daha düzgündür”.

Mütəxəssislər səhər işə gedərkən normal qidalanmağın vacib olduğunu söyləyirlər. Ofisdə hazır yeməklərdən istifadə etməmək, fast-fuddan uzaq olmaq məsləhət görülür. Meyvə-tərəvəzlərə və onlardan hazırlanmış vitaminli salatlara üstünlük vermək, eləcə də bol su içmək sağlamlığı şərtləndirən səbəblərdəndir. Açıq havada qaçmaq, sürətli yeriş, velosiped, üzgüçülük və bu kimi idman növləri ilə məşğul olmaq da kökəlməmək və formada qalmaq üçün faydalıdır.

Qəhvə ürək-damar xəstəlikləri, piylənmə, başağrıları, diabet və demensiyadan müdafiə edir

Kolorado Universitetini təmsil edən alimlər qəhvənin ürək-damar sisteminə təsirindən danışıblar. Mütəxəssislər bundan ötrü populyar içkinin təsiri barədə üç iri tədqiqatı təhlil ediblər.

Bu barədə “MedikForum” xəbər verir.

Elmi işin müəlliflərindən biri olan doktor Laura Stivensin sözlərinə görə, hər üç tədqiqatda diqqət qəhvənin ürək-damar sistemi xəstəliklərinin yaranması riski ilə bağlılığına yönəldilib. Qəhvə ağacının dənlərindən qovrulmuş və döyülmüş içki ürək çatışmazlığının əmələ gəlməsi ehtimalını 7 faiz və insult riskini 8 faiz azaldır.

Qəhvə insanı artıq çəki toplanması və başağrılarından müdafiə etmək xassəsinə malikdir, öd daşlarının əmələ gəlməsinin qarşısını alır, ikinci tip diabet xəstəliyinin yaranması riskini və demensiya ilə qarşılaşma ehtimalını azaldır. Bu içki Parkinson xəstəliyinin qarşısını da almağa kömək edir. Baş-beyində dofaminin hasil edilməsinə cavabdeh olan neyronların sıradan çıxması nəticəsində xəstəlik inkişaf edir. Qəhvə sayəsində risk 30-60 faiz azalır. Artıq Parkinson xəstəliyi ilə qarşılaşmış insanlar da qəhvə qəbul edə bilər. Makgil Universitetindən olan mütəxəssislərin fikrincə, xəstələr kofeinin köməyi ilə hərəkətlərə daha yaxşı nəzarət edə bilərlər.

Qəhvənin tərkibində təkcə oksidantlar və kofein deyil, həmçinin manqan, kalium, maqnezium, B2, B3, B5 vitaminləri var. Məhsul içkinin tərkibində qalan və orqanizm tərəfindən mənimsənilən qidalandırıcı maddələrə malikdir. Qəhvə dənələri faydalı sellülozla zəngindir.

Qəhvə insan orqanizmi üçün faydalı ola bilər, lakin həddən artıq istifadə olunarsa, o zaman mənfi təsir göstərə bilər. Alimlər bu içkidən orta səviyyədə - sutkada 300 millilitrdən artıq kofeindən (3-4 fincan üyüdülmüş və ya 5 fincan həll olan) istifadə etməməyi məsləhət görürlər. Mütəxəssislər, həmçinin yüksək təzyiq, mədə və sidik kisəsi ilə bağlı problemlər zamanı bu içkidən imtina olunmasını tövsiyə edirlər.

Müalicəsi olmayan xəstəlik yoxdur

Müasir təbabətin banisi addlandırılan məşhur loğman Əbu Əli ibn Sina 270-dən çox əsərin müəllifidir. Onun bir sıra məsləhətləri əsrlər keçəndən sonra da öz aktuallığını saxlayır.

“Fikriyat.com” saytı bu məsləhətlərdən bəzilərini təqdim edir.

1. Yay vaxtı turşməzə yeməklər, məsələn, tam yetişməmiş üzüm yeyin. Nar şirəsi, tam yetişməmiş üzüm şirəsi için, hind xurması yeyin.

2. Kökəldilmiş heyvanların ətini yeməkdən çəkinin, çünki bu, öd şirəsi ifrazını artırır. Payızda qarpız və üzüm yeyin, çünki belə yeməyin heç bir ziyanı yoxdur.

3. Müalicəvi prosedurların ən xeyirlisi hamamdır. Acqarına hamamda yuyunmaq insanı zəiflədir.

4. Kükürdlü su ağrıları azaldır, sinirləri möhkəmlədir, çiban və yaraları sağaldır, dəridəki ləkələri ağardır, mədəni zəiflədir, cinsi həvəsi azaldır.

5. Təzyiqiniz yüksək olduqda balqabaq şirəsi için. Ürəyi möhkəmlətmək üçün alma yeyin. İflic vurmuş insan sidr qozası yeməlidir. Sinə nahiyənizdə ağrılar varsa, badam yeyin, üstündən bal şərbəti için.

6. Payızda duzlu və quru yeməklərdən tam imtina edin. Belə yeməklər insanlarda müxtəlif xəstəliklərə fəsad verir. Duzlu pendir, duzlu balıq, ümumiyyətlə, bütün duzlu yeməklər zərərlidir.

7. Tərkibində dəmir olan su iştahanı artırır, dalaq xəstəliklərindən əziyyət çəkənlərə yaxşı təsir göstərir, cinsi həvəsi artırır, mədədə ağırlığı aradan götürür.

8. Dadlı və isti xörəklər öd ifrazını artırır. Buna səbəb onların çox isti olmasıdır. Belə yeməklərin faydalı cəhəti isə mədə-bağırsaq traktının işini fəallaşdırmasıdır.

9. Ürəkdöyünmə zamanı keşniş toxumu yeyin. Onurğanızda ağrı hiss edəndə cücə bulyonu için.

10. Müalicəsi olmayan xəstəlik yoxdur. Yalnız iradəsiz insanlar var. Faydasız bitki yoxdur, sadəcə onun faydalı cəhətləri hələ öyrənilməyib.

İnternet asılılığının doğurduğu fəsadlar

Ünsiyyət qurmaq insanların ən vacib ehtiyaclarından biridir. Sosial şəbəkələr vasitəsilə asanlıqla qurulan əlaqələr, hiss və düşüncələri ifadə etmək imkanı, yeni uğur və nailiyyətlər qazanmaq üçün internet hər kəsə geniş imkanlar verir.

Bundan əlavə, qadağan olunan məlumatlara asan giriş imkanı internetin istifadəsini artıran digər amillər sırasındadır. Gündəlik həyatda təhsil, bank, maliyyə, müxtəlif xidmət sahələrində əlverişli imkanlar təqdim edən internetin həddindən izafi istifadəsi internet asılılığı adlanan sosial problemi gündəmə gətirir. İnternetdən istifadə vərdişlərinin artması müəyyən müddətdən sonra internet asılılığına doğru yönəlir. İnsanlarla söhbət edərkən telefona baxmaq, toy və yas mərasimlərindən şəkillər paylaşmaq gündəlik həyatımızda tez-tez rast gəldiyimiz davranışlardandır. İnternet istifadəçilərinin ondan asılı vəziyyətə düşmələri bu gün narahatlıq doğuran əsas məsələlərdən biridir.

ict.az saytı xəbər verir ki, tədqiqatlar internet asılılığının Qərbdə və Asiyada daha çox qeydə alındığını, ciddi risk mənbəyinə çevrildiyini, xüsusən də gənclərin internetdən davamlı istifadə etməklə sağlamlıq, yuxu, iş və ailə münasibətlərini unutduqlarını göstərir. Nəzarətsiz internet istifadəsi insanların fiziki, psixoloji, sosial inkişafına mənfi təsir edir.

Qeyd edək ki, internet asılılığı termini ilk dəfə 1995-ci ildə İvan Qoldberq tərəfindən işlənib. Onun ilk dəfə zarafatla işlətdiyi bu ifadə az sonra müvafiq elmi dairələrdə ciddi termin kimi qəbul edilməyə başlanılıb. Patoloji internet istifadəsi kimi internet asılılığını bildirən ifadələr 1990-cı illərdən müxtəlif nəşrlərdə öz əksini tapıb.

Psixiatr Kimberly Younqun “İnternetdən asılılığın meyarları” adlı yazısının dərc edildiyi hesabatda qeyd edilir: “İnternet asılılığı gec yaşlarda başlayan psixoaktiv maddə, spirt və qumar asılılığının əksinə olaraq, daha gənc yaşlarda başlayır”. Bu asılılığın kişilərdə qadınlara nisbətən 2-3 dəfə daha çox olduğu müəyyən edilib. İnternet asılılığının yalnız psixoloji deyil, fiziki problemlərə də gətirib çıxardığı bildirilir. Bunların arasında kökəlmə və kürək ağrısı daha geniş yayılıb.

İnternet asılılığı problemi qlobal miqyasda böyük təşviş yaratdığına görə bu məsələ müvafiq beynəlxalq təşkilatların diqqət mərkəzindədir. Bu problemin ciddi fəsadlarının qeydə alındığı ölkələrdə təhlükənin qarşısını almaq üçün müxtəlif proqramlar qəbul edilir, layihələr həyata keçirilir, hüquqi mexanizmlər işlənib hazırlanır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2880